
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 noyabr
2026-cı il,
cümə axşamı
№ 216 (7283)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

Mübarizənin taleyini heç də həmişə kimin daha güclü olması deyil, kimin oyunun qaydalarını müəyyənləşdirməsi həll edir.

Cənubi Qafqaz yeni inkişaf mərhələsinə qədəm qoyur

Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı regional reallıqlar fonunda möhkəmlənir



Bax səh. 2

Avrasiyanın nəqliyyat, enerji və bağlantı xəritəsinin yenidən tərtibi

Bax səh. 3



“Heydər Əliyev məktəbi” layihəsinin dördüncü mərhələsinin açılış mərasimi keçirilib

Bax səh. 4

Rəqəmsal dövlət hər evə çatmalıdır

Bax səh. 6



Azərbaycanla Vatikan arasında birgə təşəbbüslər

Bax səh. 3

“Fitch Ratings”in 2027-ci ilə dair proqnozları

“Fitch Ratings” 2027-ci il üçün qlobal kredit reytinqləri üzrə proqnozunu ictimaiyyətə təqdim edib. Beynəlxalq reytinq agentliyi qlobal iqtisadi artımın sabit qalacağı və inflyasiya təzyiqlərinin azalacağı gözləntiləri fonunda gələn il ölkələrin suveren kredit reytinqlərini “neytral” səviyyədə müəyyən edib.

Agentlik neft tədarükündə fasilələrin yaranması və süni intellektlə əlaqəli bazarlarda kəskin korreksiya ehtimalı kimi risklərə də diqqət çəkib. Bildirilib ki, qiymətləndirmə...

Bax səh. 4

Kiçik sahibkarlar üçün 5 illik vergi güzəştləri

2027-ci ildə kiçik sahibkarlıq subyektlərinə bəzi vergi güzəştlərinin tətbiqi nəzərdə tutulur. Belə ki, bir sıra hallarda kiçik sahibkarlar müəyyən səbəblərdən orta kateqoriyaya keçə bilməsələr də, uzun müddət stabil fəaliyyətlərini davam etdirirlər və hökumət onların dayanıqlı fəaliyyətinə dəstək məqsədilə vergi təşviqləri verməyi düşünür. Həmin dəstək tədbirləri çərçivəsində Vergi Məcəlləsinə dəyişiklik layihəsində yeni güzəşt mexanizmi öz əksini tapıb. Yeni mexanizmə əsasən, kiçik sahibkarlıq subyekti...

Bax səh. 5

Cənubi Qafqaz ölkəsinə 250 milyon avro...


Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 2032-ci ilə qədər Cənubi Qafqaz ölkələrində “Biznesdə gənclər” (YiB) proqramının həyata keçirilməsinə 250 milyon avroya qədər vəsait yönəltmək niyyətindədir. Bu barədə AYİB-in Gender bərabərliyi və iqtisadi inklüzivlik üzrə direktoru Sonya Cordan-Kirvan bildirib. Onun sözlərinə görə, maliyyələşdirmə Azərbaycan, Ermənistan və Gürcüstanda fəaliyyət göstərən 15 tərəfdaş bank vasitəsilə təqdim ediləcək. Proqramın əsas diqqəti paytaxt regionlarından...

Bax səh. 5

Referendumun taleyi sual altındadır

Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması, o cümlədən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması bütövlükdə regionun gələcəyi üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan regionda sülhün əldə edilməsi üçün praktiki addımlar atıb. Ölkəmiz hər zaman sülhə sadiqlik göstərib, problemlərin danışıqlar yolu ilə həllinə tərəfdar kimi çıxış edib. Təsadüfi deyil ki, Azərbaycanla Ermənistan arasındakı sülh prosesi də məhz ölkəmizin təşəbbüsü ilə başlayıb...

Bax səh. 5



COP31-in nəticələrini dəstəkləməyən Ai...

Bax səh. 6

Paris Yeni Kaledoniyaya çağırılmamış qonaqlar dəvət edir - məqsəd nədir?



Bax səh. 7

Prezident İlham Əliyev Litvanın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Litva Respublikasının xarici işlər naziri Kestutis Budrisi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Kestutis Budris Litva Prezidenti Gitanas Nausedanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Litva Prezidentinə çatdırmağı xahiş edib.

Dövlətimizin başçısı bir müddət əvvəl Dublində "Avropa Siyasi Birliyi"nin Zirvə Toplantısı çərçivəsində Litva Prezidenti Gitanas Nauseda ilə görüşünü, eləcə də Litvanın Baş naziri Mindauqas Sinkeviçyusla telefon danışığını məmnunluqla xatırlayıb.

Azərbaycan ilə Litva arasında strateji tərəfdaşlıq münasibətlərinin uzun illərdir uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev enerji təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu qeyd edib və nazirin səfərini bu baxımdan vacib addım kimi qiymətləndirib.

Kestutis Budris səfər çərçivəsində "Azərbaycan Respublikası və Litva Respublikası arasında Strateji tərəfdaşlıq haqqında Birgə bəyannamə"nin imzalanacağını bildirib, iqtisadiyyat, ticarət və nəqliyyat sahələrində əlaqələrin dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

Nazir Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsində əldə olunan uğurlar münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

Təbrikə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanın regionda sülhün möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb.

Prezident İlham Əliyev münasibətlərin normallaşması fonunda Azərbaycanla Ermənistan arasında iqtisadi və ticari əlaqələrin qurulduğunu, üçüncü ölkələrdən Ermənistana və Ermənistandan üçüncü ölkələrə yüklərin Azərbaycan ərazisindən tranzitlə daşınması üçün imkanların yaradıldığını qeyd edib. Dövlətimizin başçısı son bir il ərzində Azərbaycan ərazisindən Ermənistana 100 min tondan artıq yükün daşındığını bildirib.

Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərindən danışılarkən qeyd olunub ki, həm Birinci Qarabağ müharibəsi dövründə, həm də 2020-2023-cü illərdə basdırılmış minalar bu işlərə mane olur və insanların həyatı üçün ciddi təhlükə yaradır.



Kestutis Budris Litvanın 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcəyini bildirərək ölkəsinin Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafına dəstəyini davam etdirəcəyini vurğulayıb. O, Litvanın Azərbaycanın NATO ilə əlaqələrinin genişləndirilməsini də dəstəklədiyini qeyd edib.

Prezident İlham Əliyev qarşıdakı sədrlik münasibətilə təbriklərini çatdırıb, bu il Avropa İttifaqı rəhbərliyinin ölkəmizə səfərlərini və Dublin Sammiti çərçivəsində keçirilən görüşləri xatırlayıb. Azərbaycanın Avropa İttifaqına üzv 10 ölkə ilə ikitərəfli strateji tərəfdaşlıq sənədlərinin olduğunu qeyd edən dövlətimizin başçısı Litva ilə münasibətlərin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı üçün də əlverişli mühit yaratdığını bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqazda və Xəzər regionunda bağlantı layihələrinin təşəbbüskarı olduğunu vurğulayıb.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında ticarət dövriyyəsi, eyni zamanda, Azərbaycan ilə Litva arasında müxtəlif sahələrdə, o cümlədən energetika və bərpaolunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Cənubi Qafqaz yeni inkişaf mərhələsinə qədəm qoyur

Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı regional reallıqlar fonunda möhkəmlənir

Cənubi Qafqazda Azərbaycanın yaratdığı yeni siyasi və geosiyasi reallıqlar regionun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə yanaşı, dövlətlərarası münasibətlərdə də mühüm yeniliklərə yol açır. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, Ermənistanla sülh gündəliyinin irəliyə aparılması, regional kommunikasiyaların açılması istiqamətində nümayiş etdirilən iradə Cənubi Qafqazı qarşıdurma məkanından əməkdaşlıq və iqtisadi tərəqqi zonasına çevirmək üçün yeni imkanlar yaradıb. Bu prosesdə Azərbaycanın ənənəvi strateji tərəfdaşlarından olan Gürcüstanla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Bakı və Tbilisi arasında uzun illər ərzində formalaşmış qarşılıqlı etimad, iqtisadi bağlılıq və siyasi həmrəylik bu gün yeni regional çağırışlara uyğun olaraq daha geniş məzmun qazanır. Xüsusilə Orta Dəhlizin əhəmiyyətinin artması, enerji təhlükəsizliyi, nəqliyyat-logistika infrastrukturunun genişləndirilməsi və regional kommunikasiyaların bərpası iki ölkənin əməkdaşlığını daha böyük geoiqtisadi strategiyanın mühüm elementinə çevirir. Artıq Azərbaycan-Gürcüstan tərəfdaşlığı yalnız ikitərəfli maraqlarla məhdudlaşmır, Avropa ilə Asiya arasında iqtisadi və enerji əlaqələrinin təmin olunmasında mühüm rol oynayır. Gürcüstan Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvilinin ölkəmizə səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirdikləri mətbuat konfransında səsləndirilən fikirlər və açıqlanan göstəricilər də münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu təsdiqləyir.

Yeni regional nəqliyyat arxitekturası

Azərbaycan və Gürcüstanın regional əməkdaşlıq modelindəki rolunu müəyyən edən əsas amillərdən biri onların coğrafi mövqelərindən strateji üstünlük kimi istifadə etməyi bacarmalarıdır. Hər iki ölkə Şərqlə Qərb arasında mühüm bağlantı nöqtəsində yerləşir və bu üstünlük uzun illərdir həyata keçirilən infrastruktur layihələri ilə real iqtisadi imkanlara çevrilir. Bu gün beynəlxalq ticarət marşrutlarının şaxələndirilməsi, alternativ nəqliyyat yollarına tələbatın artması və qlobal təchizat zəncirlərinin təhlükəsizliyinin ön plana çıxması Bakı-Tbilisi xəttinin əhəmiyyətini daha da yüksəldib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Azərbaycanın regionda nəqliyyat-logistika imkanlarının genişləndirilməsi istiqamətində fəaliyyətinə toxunaraq bildirib ki, Azərbaycanla Ermənistan arasında 42 kilometrlik dəmir yolu dəhlizi barədə ötən il və ondan əvvəlki dövrdə ABŞ ilə Ermənistan arasında danışıqlar aparılıb. Danışıqlarda layihəni həyata keçirəcək şirkətin yaradılması və payların bölüşdürülməsi məsələləri müzakirə olunub. Azərbaycan tərəfi də bu proses barədə məlumatlandırılıb. Nazir qeyd edib ki, həmin dəhlizin giriş və çıxış nöqtələri Azərbaycan sərhədinə bağlıdır. Ona görə də layihənin həyata keçirilməsi və yüklərin daşınmasının düzgün təşkili üçün Azərbaycanın mövqeyi nəzərə alınmalıdır. "Azərbaycan bu layihəni alqışlayır və onun qısa müddətdə başa çatmasını arzulayır. Artıq ərazidə müəyyən fiziki işlərin başlanmasına dair məlumatlar da var.

Bu layihə Azərbaycan üçün bir neçə baxımdan əhəmiyyətlidir. "Birincisi, ölkədaxili baxımdan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəliş üçün yeni imkanlar yaradacaq. İkincisi, layihənin regional əhəmiyyəti var. Bu dəhliz Şərq-Qərb nəqliyyat marşrutunun və Orta Dəhlizin yeni bir istiqaməti olacaq. Təkcə Azərbaycan və Ermənistan deyil, digər region ölkələri də bu layihədən faydalana biləcəklər", - deyə C.Bayramov vurğulayıb.

Nazir diqqətə çatdırıb ki, Şərq-Qərb marşrutu ilə böyük həcmdə yüklər daşınır. Avropa İttifaqı, Çin və digər Asiya ölkələri arasında yükdaşımaların həcmi kifayət qədər böyükdür. Belə layihələrdə yükdaşıyanlar yalnız bir marşruta deyil, bütövlükdə regionun nəqliyyat imkanlarına baxırlar. Buna görə də alternativ yolların çox olması bütün region üçün əlavə imkanlar yaradır və yeni yüklərin cəlb olunmasına kömək edir.

"Layihənin digər mühüm tərəfi onun praktiki nəticələri ilə bağlıdır. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılır. Eyni zamanda, Türkiyədə 224 kilometr uzunluğunda Qars-İğdır-Dilucu dəmir yolu layihəsinin icrasına başlanılıb.


Bütün bu layihələr bir-biri ilə əlaqəli şəkildə həyata keçirildikdə, böyük bir regional dəmir yolu şəbəkəsi formalaşacaq. Bakı-Tbilisi-Qars, Qars-İğdır-Dilucu və Naxçıvan dəmir yollarının birləşməsi yeni nəqliyyat imkanları yaradacaq. Bu, yüklərin daha rahat və alternativ marşrutlarla daşınmasına şərait yaradacaq", - deyə nazir əlavə edib.

Azərbaycan-Gürcüstan nəqliyyat bağlantıları Avropanın iqtisadi və enerji təhlükəsizliyində mühüm yer tutur

Azərbaycan-Gürcüstan əməkdaşlığının strateji əhəmiyyəti yalnız regional miqyasla məhdudlaşmır. Bu tərəfdaşlıq Avropanın enerji təchizatının şaxələndirilməsi, Xəzər hövzəsinin resurslarının dünya bazarlarına çatdırılması və Asiya ilə Avropa arasında etibarlı nəqliyyat əlaqələrinin qurulması baxımından da xüsusi önəm daşıyır. Məhz bu səbəbdən Bakı və Tbilisinin birgə həyata keçirdiyi layihələrə Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşların marağı artır. Çünki qlobal enerji bazarında baş verən dəyişikliklər, geosiyasi gərginliklər və ənənəvi təchizat marşrutları ətrafında yaranan risklər alternativ mənbələrin və istiqamətlərin əhəmiyyətini daha da yüksəldib.

Gürcüstanın xarici işlər naziri Maka Boçorişvilinin mətbuat konfransında səsləndirdiyi fikirlər də bu əməkdaşlığın beynəlxalq əhəmiyyətini təsdiqləyir. Nazir qeyd edib ki, Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi layihələr Avropa üçün strateji əhəmiyyət daşıyır. Avropada təhlükəsizliyin təmin olunması uzun illər ərzində formalaşmış əməkdaşlığın nəticəsidir. Avropa üçün həyati əhəmiyyət kəsb edən bu marşrutların Cənubi Qafqazdan keçməsi xüsusi önəm daşıyır. Bu əməkdaşlıq, eyni zamanda, Azərbaycanla formalaşmış dostluq və tərəfdaşlıq münasibətlərinə əsaslanır. "Ölkələrimizin iştirakı ilə həyata keçirilən iri layihələr daha geniş coğrafiyanın enerji təchizatı baxımından da mühüm əhəmiyyət daşıyır. Bu layihələr regionun enerji xəritəsinin dəyişməsinə ciddi təsir göstərib. Onların bir qismi uzun tarixə malikdir. Bu baxımdan vaxtilə fəal fəaliyyət göstərən Bakı-Supsa neft kəmərini qeyd etmək olar. Kəmər bu gün də mövcuddur və daşımaların həcmi artacağı təqdirdə, gələcəkdə yenidən istifadəyə verilə bilər.

Digər mühüm layihə Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Bu kəmər vasitəsilə Azərbaycan nefti dünya bazarlarına, o cümlədən Avropa ölkələrinə çatdırılır", - deyə Maka Boçorişvili əlavə edib.



İqtisadi münasibətlər genişlənir

Azərbaycan-Gürcüstan münasibətlərinin mühüm istiqamətlərindən biri də iqtisadi əməkdaşlığın davamlı inkişafı və qarşılıqlı investisiya əlaqələrinin genişlənməsidir. İki ölkə arasında siyasi etimadın yüksək səviyyədə olması iqtisadi münasibətlərin də uzunmüddətli və sabit əsaslar üzərində qurulmasına imkan yaradır. Son illərdə ticarət dövriyyəsində müşahidə olunan müsbət dinamika, investisiya qoyuluşlarının həcmi və müxtəlif sahələrdə birgə fəaliyyət bu tərəfdaşlığın real iqtisadi nəticələrini ortaya qoyur.

Keçirilən mətbuat konfransında nazir Ceyhun Bayramovun açıqladığı statistik göstəricilər münasibətlərin iqtisadi məzmununun genişləndiyini aydın şəkildə göstərir. Nazir bildirib ki, ölkələrimiz arasında ticarət dövriyyəsində müsbət dinamika müşahidə olunur. Bu ilin ilk 9 ayında Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsi 900 milyon ABŞ dollarına çatıb ki, bu da ötən ilin ümumi göstəricisini üstələyir. C.Bayramov qeyd edib ki, Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı investisiyaların ümumi həcmi 4 milyard ABŞ dolları təşkil edir. Bu məbləğin 2,1 milyard dolları SOCAR-ın payına düşür. Eyni zamanda, Gürcüstanın Azərbaycan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi 460 milyon dollar təşkil edir. "Dünyada baş verən proseslər və mövcud problemlər Azərbaycan-Gürcüstan nəqliyyat-logistika dəhlizlərinə marağı daha da artırıb. Biz hər il bu dəhlizlər vasitəsilə daşınan yüklərin həcmində artım müşahidə edirik", - deyə Ceyhun Bayramov əlavə edib.

Bu rəqəmlər sadəcə iqtisadi statistika deyil. Onlar iki ölkə arasında formalaşmış etimad mühitinin, qarşılıqlı maraqların və uzunmüddətli əməkdaşlıq strategiyasının göstəricisidir. Xüsusilə, Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı sərmayələr enerji, sənaye, logistika və xidmət sahələrində yeni imkanların yaranmasına töhfə verir. İnvestisiya əlaqələrinin genişlənməsi hər iki ölkənin iqtisadiyyatını bir-birinə daha sıx bağlayır, regional iqtisadi sabitliyin möhkəmlənməsinə xidmət edir.

Münasibətlərin yeni mərhələsinin diqqətçəkən xüsusiyyətlərindən biri də Azərbaycanla Ermənistan arasında iqtisadi təmasların yaranmasında Gürcüstanın tranzit imkanlarından istifadə edilməsidir. Ceyhun Bayramovun Gürcüstan vasitəsilə Ermənistana neft məhsullarının ixracına başlanılması ilə bağlı fikirləri də bunu təsdiqləyir. O bildirib ki, Gürcüstan vasitəsilə Ermənistana neft məhsullarının ixracına başlanılması regionda əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Bu addım Azərbaycanın sülh gündəliyinin yalnız siyasi bəyanatlarla məhdudlaşmadığını, iqtisadi əməkdaşlıq üçün də praktiki imkanların yaradılmasına yönəldiyini göstərir. Eyni zamanda, Gürcüstanın regional iqtisadi əlaqələrdə vasitəçi tranzit məkan kimi rolunu genişləndirir.

Bütün bunlarla yanaşı, iki ölkə arasında siyasi dialoqun intensivliyi də əməkdaşlığın davamlılığını təmin edən əsas amillərdəndir. Maka Boçorişvili qeyd edib ki, cari il Azərbaycan və Gürcüstan arasında yüksəksəviyyəli strateji dialoq və siyasi təmaslar baxımından əlamətdar olub. Onun sözlərinə görə, ölkələrimiz arasında siyasi gündəlik kifayət qədər genişdir və müxtəlif istiqamətləri əhatə edir. 2026-cı ildə ikitərəfli əməkdaşlığın inkişafı istiqamətində mühüm addımlar atılıb.

Azərbaycanın XİN başçısı da bildirib ki, Gürcüstan Azərbaycan üçün dost və strateji tərəfdaş ölkədir. Xalqlarımız arasında dərin tarixi bağlar mövcuddur. Azərbaycan-Gürcüstan münasibətlərinin geniş və zəngin əməkdaşlıq gündəliyi var.

"Parlamentlərarası əlaqələr də daxil olmaqla, ölkələrimiz arasında əməkdaşlıq yüksək intensivliyi ilə seçilir. Azərbaycan və Gürcüstan arasında müxtəlif sahələri əhatə edən geniş əməkdaşlıq mövcuddur. İki ölkə arasında 145 sənəd imzalanıb, daha 18 sənədin hazırlanması istiqamətində işlər davam etdirilir", - deyə nazir qeyd edib.

Nəticə etibarilə, Azərbaycan və Gürcüstanın strateji tərəfdaşlığı bu gün regional sülhün, iqtisadi inteqrasiyanın və beynəlxalq bağlantıların inkişafında mühüm amildir. Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda Bakı-Tbilisi münasibətləri daha geniş geosiyasi və geoiqtisadi məzmun qazanır. Bu əməkdaşlığın gələcək perspektivi isə Cənubi Qafqazın beynəlxalq nəqliyyat, enerji və ticarət sistemində mövqeyinin daha da güclənəcəyini deməyə əsas verir.

P.İSMAYILOV

Avrasiyanın nəqliyyat, enerji və bağlantı xəritəsinin yenidən tərtibi

Azərbaycanın yaratdığı reallıqlar tarixi İpək Yolunun dirçəlişini vəd verir

Prezident İlham Əliyev: Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda, Orta Dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək Yolunun dirçəldilməsinə xidmət edəcəkdir

Müasir dünyada geosiyasi proseslərin sürətlə dəyişməsi, beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin formalaşması və qlobal iqtisadi əlaqələrin yenidən şəkillənməsi dövlətlərin qarşısında yeni imkanlarla yanaşı, ciddi çağırışlar da yaradır. Belə bir şəraitdə Azərbaycanın həyata keçirdiyi məqsədyönlü siyasət, qazandığı tarixi zəfər və regionda yaratdığı yeni siyasi reallıqlar Cənubi Qafqazın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən əsas amillərdən birinə çevrilib. Azərbaycan yalnız öz milli maraqlarını təmin edən dövlət kimi deyil, daha geniş coğrafiyada təhlükəsizlik, iqtisadi əməkdaşlıq və nəqliyyat bağlantılarının yeni modelini formalaşdıran mühüm aktor kimi çıxış edir. Xüsusilə, Ermənistanla sülh gündəliyinin irəli aparılması, regional kommunikasiyaların açılması istiqamətində atılan addımlar və Türkiyə ilə müttəfiqliyin strateji məzmununun dərinləşdirilməsi yeni geoiqtisadi mənzərənin konturlarını müəyyənləşdirir. Bu proseslərin ən mühüm nəticələrindən biri isə əsrlər boyu Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolunun müasir dövrün tələblərinə uyğun şəkildə yenidən canlandırılması perspektividir. Söhbət sadəcə tarixi ticarət marşrutunun bərpasından getmir - bu, bütövlükdə Avrasiyanın iqtisadi xəritəsinin dəyişməsi, xalqlar və dövlətlər arasında yeni əməkdaşlıq imkanlarının yaranması, regionun təhlükəsizlik arxitekturasının iqtisadi qarşılıqlı asılılıq üzərində möhkəmləndirilməsi deməkdir. Azərbaycanın təşəbbüsləri ilə formalaşan bu yeni mənzərə Avropadan Türkiyəyə, Türkiyədən Naxçıvana, Cənubi Qafqazdan Mərkəzi Asiyaya qədər geniş coğrafiyanı əhatə edir. Bu strateji transformasiyanın əsas müəllifi və təşəbbüskarı isə məhz Azərbaycandır.

Azərbaycan-Türkiyə əməkdaşlığının regional miqyası genişlənir

Tarixi İpək Yolunun müasir dövrdə bərpasından danışarkən, ayrı-ayrı coğrafi məkanların strateji əhəmiyyətini düzgün qiymətləndirmək vacibdir. Çünki böyük nəqliyyat və ticarət marşrutlarının səmərəliliyi yalnız magistral yolların mövcudluğu ilə deyil, onların üzərində yerləşən şəhərlərin, bölgələrin iqtisadi potensialı və regional əlaqələrə inteqrasiya imkanları ilə müəyyən olunur. Bu baxımdan, Türkiyə ilə Azərbaycan Avrasiyanın yeni siyasi-iqtisadi atlasında xüsusi diqqət çəkir. Türkiyənin İğdır bölgəsinin Azərbaycanla, daha dəqiq desək, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd olması bu ərazini Azərbaycan və Türkiyə arasında iqtisadi, nəqliyyat və humanitar münasibətlərin inkişafında mühüm əlaqələndirici məkana çevirir.


İğdırın əhəmiyyəti həm də ondan ibarətdir ki, regionda baş verən geosiyasi dəyişikliklər bu bölgənin iqtisadi imkanlarının daha geniş miqyasda dəyərləndirilməsinə şərait yaradır. Xüsusilə, Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə nəqliyyat bağlantılarının genişləndirilməsi perspektivi İğdırın tranzit potensialını əhəmiyyətli dərəcədə artırır. Bu, gələcəkdə ticarət dövriyyəsinin genişlənməsi, kənd təsərrüfatı məhsullarının daşınması, sənaye və xidmət sektorunda yeni investisiya imkanlarının yaranması baxımından mühüm perspektivlər açır. Eyni zamanda, sərhədyanı ərazilərdə iqtisadi fəallığın yüksəlməsi yerli əhalinin sosial rifahına, məşğulluğun artmasına və yeni biznes əlaqələrinin formalaşmasına müsbət təsir göstərə bilər.

Burada diqqətçəkən digər məqam tarixi və mənəvi yaxınlığın iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaratmasıdır. Azərbaycan və Türkiyə xalqları arasında mövcud olan qardaşlıq münasibətləri siyasi qərarların ictimai səviyyədə dəstəklənməsini asanlaşdırır. İğdır və Naxçıvan arasında formalaşan bu təbii yaxınlıq daha böyük regional əməkdaşlıq modelinin sosial əsasını təşkil edir. Azərbaycanın irəli sürdüyü yeni bağlantı strategiyası yalnız dövlətlərarası münasibətlərin inkişafına deyil, sərhəd bölgələrinin də ümumi tərəqqi prosesinə cəlb edilməsinə xidmət edir. İğdırın artan strateji əhəmiyyəti də məhz bu yeni regional yanaşmanın tərkib hissəsidir. Prezident İlham Əliyevin noyabrın 24-də Türkiyənin İğdır şəhərində keçirilən Beynəlxalq Qafqaz Konqresinin iştirakçılarına ünvanladığı müraciətdə bildirilib ki, tarix boyu mühüm ticarət yolları üzərində yerləşən İğdır bu gün də özünün əlverişli mövqeyini qoruyaraq regional əməkdaşlığın inkişafına töhfə verməyə davam edir: "İğdırın Naxçıvanla birbaşa qonşuluğu, bölgələr arasında tarixən mövcud olan sıx təmaslar və qarşılıqlı rəğbət qardaş xalqlarımızı bir-birinə daha da yaxınlaşdıraraq Azərbaycan-Türkiyə əməkdaşlığının möhkəmlənməsinə və regional bağlılığa xidmət edir".

Şuşa Bəyannaməsi regional inteqrasiyanın siyasi və strateji dayağıdır

Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü məzmununu müəyyən edən əsas xüsusiyyət bu əlaqələrin konkret geosiyasi və geoiqtisadi hədəflərə xidmət etməsidir. İki ölkə arasında mövcud olan siyasi iradə, qarşılıqlı etimad və strateji maraqların uzlaşması regional proseslərə təsir imkanlarını əhəmiyyətli dərəcədə artırır. Şuşa Bəyannaməsi isə bu münasibətlərin institusional və hüquqi əsaslarını daha da möhkəmləndirərək müttəfiqliyin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirib. Bununla da Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq ayrı-ayrı sahələr üzrə tərəfdaşlıqdan daha geniş strateji fəaliyyət modelinə çevrilib.

Bu müttəfiqliyin əhəmiyyəti xüsusilə regionda yeni təhlükəsizlik və iqtisadi əməkdaşlıq sisteminin qurulması prosesində özünü göstərir. Azərbaycan və Türkiyə nəqliyyat, enerji, müdafiə, sənaye və ticarət sahələrində həyata keçirdikləri layihələrlə bir-birini tamamlayan iqtisadi məkan formalaşdırırlar. Azərbaycan və Türkiyə regional əməkdaşlığın təşəbbüskarı olmaqla yanaşı, qlobal iqtisadi əlaqələrin mühüm iştirakçılarına çevriliblər. Artıq Bakı ilə Ankara mövcud nailiyyətləri yeni geosiyasi şəraitə uyğun olaraq daha da genişləndirməyi hədəfləyir. Çünki beynəlxalq ticarət marşrutlarının şaxələndirilməsi, təchizat zəncirlərinin təhlükəsizliyinin təmin edilməsi və alternativ bağlantı imkanlarının artırılması qlobal iqtisadiyyatın prioritetlərindəndir. Azərbaycan və Türkiyənin coğrafi mövqeyi, siyasi sabitliyi və infrastruktur imkanları bu istiqamətdə ciddi üstünlüklər yaradır. Şuşa Bəyannaməsinin yaratdığı strateji çərçivə isə həmin üstünlüklərin vahid məqsədlər naminə səfərbər olunmasına imkan verir. Nəticə etibarilə, iki ölkənin müttəfiqliyi regional inteqrasiyanın siyasi təminatına çevrilməklə yanaşı, Avrasiyanın gələcək nəqliyyat və iqtisadi konfiqurasiyasında onların mövqelərini daha da gücləndirir. Prezident İlham Əliyev müraciətində qeyd edib ki, ortaq soy-kökə və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri tarixi Şuşa Bəyannaməsi ilə ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qalxdı: "Fəxrlə qeyd edə bilərik ki, üstün coğrafi mövqeyi ilə Avropa və Asiya arasında körpü rolunu oynayan ölkələrimizin birgə həyata keçirdiyi nəhəng layihələr Cənubi Qafqazın və ümumilikdə bütün Avrasiya regionunun nəqliyyat, enerji və bağlantı xəritəsini yenidən tərtib etdi".



Zəngəzur dəhlizi (TRIPP) tarixi İpək Yolunun yeni geoiqtisadi mərhələsini formalaşdırır

Danılmaz faktdır ki, Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi qələbə Cənubi Qafqazda uzun illər mövcud olmuş geosiyasi status-kvonu dəyişdirməklə yanaşı, regionun gələcək inkişafı üçün tamamilə yeni imkanlar yaradıb. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə formalaşan yeni reallıqlar artıq təkcə siyasi və hərbi müstəvidə deyil, iqtisadi, nəqliyyat və kommunikasiya sahələrində də özünü göstərir. Bu baxımdan Zəngəzur dəhlizinin (TRIPP) yaradılması Azərbaycanın regional strategiyasının ən mühüm komponentlərindən biridir. Çünki bu layihə ölkəmizin Naxçıvanla nəqliyyat əlaqələrinin təmin edilməsi məsələsini həll etməklə yanaşı, daha geniş coğrafiyada yeni iqtisadi münasibətlər sisteminin qurulmasına xidmət edir.

Məsələnin mühüm tərəfi ondan ibarətdir ki, Zəngəzur dəhlizi (TRIPP) Xəzər dənizinin qərb sahillərini Türkiyə və Avropa istiqamətində birləşdirən daha böyük nəqliyyat zəncirinin mühüm həlqəsinə çevriləcək. Nəticədə, Mərkəzi Asiya ölkələrinin istehsal etdiyi məhsulların dünya bazarlarına çıxışı üçün əlavə imkanlar yaranacaq, Şərqlə Qərb arasında yükdaşımaların alternativ marşrutları genişlənəcək. Bu isə Orta Dəhlizin, başqa sözlə qədim ipək Yolunun rəqabət qabiliyyətinin artırılması, tranzit müddətlərinin optimallaşdırılması və regionun beynəlxalq logistika sistemindəki mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətlidir.

Digər mühüm məsələ regional kommunikasiyaların açılmasının iqtisadi əməkdaşlıqla yanaşı, təhlükəsizlik baxımından yaratdığı imkanlardır. Dövlətlər arasında qarşılıqlı iqtisadi maraqların genişlənməsi, ticarət əlaqələrinin dərinləşməsi və infrastruktur layihələrinin ortaq fayda prinsipi əsasında inkişafı uzunmüddətli sabitlik üçün əlavə təminatlar formalaşdırır. Azərbaycan məhz bu yanaşma ilə çıxış edərək regionda qarşıdurma məntiqini əməkdaşlıq məntiqi ilə əvəz etməyə çalışır. Sülhün iqtisadi dividendlərinin bütün tərəflər üçün əlçatan olması isə yeni regional düzənin dayanıqlılığını artıran əsas amillərdən biridir. Dövlət başçısı müraciətində vurğulayıb ki, Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi bu regionu beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq baxımından mühüm strateji əhəmiyyətə malik məkana çevirmişdir: "Azərbaycanın təşəbbüsü ilə hazırda reallaşdırılan Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda, Orta Dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək Yolunun dirçəldilməsinə xidmət edəcəkdir".

Beynəlxalq Qafqaz Konqresi yeni regional əməkdaşlıq gündəliyinin müzakirə platformasıdır

Cənubi Qafqazda baş verən fundamental dəyişikliklər və Azərbaycanın irəli sürdüyü yeni əməkdaşlıq təşəbbüsləri regionun gələcəyinə dair müzakirələrin də mahiyyətini dəyişdirir. Əgər əvvəlki dövrlərdə beynəlxalq platformalarda Cənubi Qafqaz əsasən münaqişələr, təhlükəsizlik problemləri və geosiyasi rəqabət kontekstində nəzərdən keçirilirdisə, hazırda diqqət iqtisadi inteqrasiya, nəqliyyat bağlantıları, regional inkişaf və ortaq perspektivlər üzərində fokuslanır. Bu mənada Beynəlxalq Qafqaz Konqresinin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Belə bir platforma regionun aktual məsələlərinin yalnız ayrı-ayrı dövlətlərin mövqeləri çərçivəsində deyil, bütövlükdə geniş Avrasiya məkanının maraqları baxımından qiymətləndirilməsi üçün imkan yaradır. Konqresin əhəmiyyəti ilk növbədə müxtəlif ölkələrin siyasi, iqtisadi, elmi və ictimai dairələrinin nümayəndələrini vahid müzakirə müstəvisində bir araya gətirmək potensialı ilə bağlıdır. Çünki regional inkişafın təmin olunması yalnız hökumətlərarası razılaşmalarla məhdudlaşmır. Bu prosesdə biznes dairələrinin, investorların, ekspertlərin və akademik mühitin də iştirakı vacibdir. Nəqliyyat dəhlizlərinin iqtisadi səmərəliliyi, logistika infrastrukturunun genişləndirilməsi, sərhədyanı ticarətin inkişafı və yeni investisiya layihələrinin reallaşdırılması kimi məsələlər geniş müzakirə və koordinasiya tələb edir. Konqres bu istiqamətdə fikir mübadiləsi aparılması, mövcud problemlərin müəyyənləşdirilməsi və gələcək əməkdaşlıq imkanlarının dəyərləndirilməsi baxımından faydalı platformaya çevrilə bilər.

Digər tərəfdən, tarixi İpək Yolunun bərpası həm də əsrlər boyu müxtəlif sivilizasiyaları, mədəniyyətləri və xalqları birləşdirmiş tarixi əlaqələrin müasir şəraitdə yeni məzmun qazanması deməkdir. Bu baxımdan region ölkələri arasında humanitar təmasların, elmi və mədəni əməkdaşlığın genişləndirilməsi də ümumi prosesin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyev müraciətində Beynəlxalq Qafqaz Konqresinin regionumuzun gələcək inkişaf perspektivlərinin, İpək Yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma olacağına, bölgədə sülhün, sabitliyin, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və dayanıqlı inkişafın təmin edilməsinə öz töhfəsini verəcəyinə inamını ifadə edib.

Pərviz SADAYOĞLU

Azərbaycanla Vatikan arasında birgə təşəbbüslər

Heydər Əliyev Fondu ilə Vatikan Apostol Arxivi rəqəmsal konservasiya üsullarının öyrənilməsi və tətbiqinə dair yeni razılaşma sənədi imzalayıblar

Genişlənən əməkdaşlığın davamı olaraq bugünlərdə Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında yeni razılaşma əldə olunub. Belə ki, fondla Vatikan Apostol Arxivi arasında rəqəmsal konservasiya üsullarının öyrənilməsi və tətbiqinə dair yeni razılaşma sənədi imzalanıb.

Heydər Əliyev Fondu adından sənədi Vatikanda səfərdə olan Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Vatikan Apostol Arxivi adından isə arxivin prefekti Rokko Ronzani imzalayıblar.

Heydər Əliyev Fondunun Vatikanda reallaşdırdığı çoxsaylı layihələr

Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti yalnız ölkə daxilində həyata keçirilən layihələrlə məhdudlaşmır. Azərbaycanın Birinci vitse-prezidenti, fondun rəhbəri Mehriban xanım Əliyeva daim xoş məramdan çıxış etməklə beynəlxalq həmrəyliyin möhkəmlənməsini, ayrı-ayrı ölkələrlə humanitar əməkdaşlığın genişlənməsini hədəfləyən təşəbbüslər irəli sürür və onların yüksək səviyyədə icrasına nail olur. Beləliklə də, fondun ölkə hüdudlarından kənarda sərgilədiyi fəaliyyətlər Azərbaycanın xarici siyasət kursunun coğrafiyasının genişlənməsinə, onun səmərəliliyinin artmasına öz müsbət təsirini göstərir və dünyada respublikamızın dostlarının sayını artırırır.

Bu baxımdan Heydər Əliyev Fondu ilə Vatikan arasında bərqərar olan geniş əməkdaşlıq əlaqələri də təqdirəlayiqdir. Hər iki tərəfin istəyi və səyləri sayəsində getdikcə daha da möhkəmlənən qarşılıqlı əlaqələr artıq kifayət qədər geniş gündəliyə malikdir.



Yeri gəlmişkən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva 2025-ci il oktyabrın 16-17-də Vatikanda rəsmi səfərdə olub. Bəhs olunan rəsmi səfəri zamanı Azərbaycanın Birinci vitse-prezidenti Roma Papası XIV Leo, Müqəddəs Taxt-Tacın Dövlət katibi kardinal Pietro Parolin və digər yüksəksəviyyəli rəsmilərlə görüşüb. Görüşlərdə Fondun bərpa layihələri, elmi araşdırmalar, mədəni mübadilə, Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti və Bakıda ikinci Katolik Kilsəsinin tikintisi ilə bağlı hazırlıq işləri müzakirə olunub. Roma Papası XIV Leo Azərbaycanın bu əməkdaşlığının dinlərarası və sivilizasiyalararası dialoqa töhfəsini xüsusi vurğulayıb.

Həmin səfər zamanı Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışı da keçirilib. Bununla diplomatik təmsilçilik daha da möhkəmləndirilib.

Cari ilin sentyabr ayında isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva növbəti dəfə Vatikana səfərə gələrək burada Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakad, Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyanın katibi Raffaella Culiani, Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə səmərəli görüşlər keçirib.

Sentyabrın 29-da Müqəddəs Taxt-Tacda həmçinin "Səmavi dinlər" layihəsi çərçivəsində iudaizm, xristianlıq və İslam dinlərinə həsr olunmuş Azərbaycan xalçaları sərgisinin açılış mərasimi keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alyona Əliyeva iştirak ediblər.

Daha bir mühüm məqam ondan ibarətdir ki, Heydər Əliyev Fondu Azərbaycanın bütün dünya miqyasında həyata keçirdiyi genişməzmunlu humanitar diplomatiyaya uyğun olaraq Vatikanda bir sıra layihələri yüksək səviyyədə həyata keçirib. Xatırladaq ki, 2024-cü il sentyabrın 11-də 25 ildən bir təşkil olunan və Müqəddəs Taxt-Tac tərəfindən qeyd edilən "Yubiley İli" çərçivəsində Vatikan Şəhər Dövlətinin Qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin təhlükəsizliyinin təmin olunmasını və təmirini nəzərdə tutan sənəd imzalanıb. Layihənin icrası uğurla təmin edilib.

Fondun Vatikanda reallaşdırdığı layihələrdən biri də Müqəddəs Kommodilla katakombalarının bərpasını əhatə edir. Yuxarıda bəhs olunan səfər çərçivəsində Birinci vitse-prezident və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilmiş bərpa işləri ilə tanış olublar.

Anlaşma Memorandumunun davamı

Yeni razılaşma Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Arxivi arasında 2025-ci il sentyabrın 10-da imzalanmış Anlaşma Memorandumunun davamıdır. Qeyd edək ki, tarixi və mədəni irsin qorunması və təbliği istiqamətində mühüm fəaliyyət həyata keçirən Vatikan Apostol Arxivi 650-dən çox arxiv kolleksiyasını, ümumilikdə 85 xətti kilometr uzunluğunda arxiv materiallarını özündə birləşdirir.

Bu zəngin irsin qorunması və gələcək nəsillərə çatdırılması məqsədilə Arxiv məlumatların ehtiyat nüsxələrinin saxlanılması üçün nəzərdə tutulan infrastrukturun yenilənməsi və gücləndirilməsi istiqamətində iş aparır. İmzalanmış razılaşma bu istiqamətdə əməkdaşlığa, rəqəmsal konservasiya üsullarının öyrənilməsi və tətbiqində birgə fəaliyyəti ehtiva edir və regionumuzun, xüsusilə də Azərbaycanın tarixi, mədəniyyəti və keçmişinə dair mühüm materialların araşdırılması, rəqəmsal mühafizəsi və gələcək nəsillərə çatdırılması baxımından yeni imkanlar yaradır.

Bununla yanaşı, gənc Azərbaycan mütəxəssisləri üçün təlimlərin təşkili, tarixi materialların qorunması sahəsində təcrübə mübadiləsi, birgə elmi tədqiqatların aparılması, Arxiv tərəfindən təşkil olunan proqramlarda iştirak və bu istiqamətdə görülən işlərin davam etdirilməsi məsələləri də müzakirə olunub.

Proqram çərçivəsində Vatikan Apostol Arxivinin tarixi bölmələri və oxu zalları ilə tanışlıq olunub, həmçinin Vatikan Apostol Kitabxanasında Papa XIV Leonun cari ilin 14 sentyabr tarixində açılışını etdiyi "AQVA" sərgisinə baxış keçirilib.

Daha sonra Vatikan Apostol Kitabxanası və Arxivinin rəhbəri Arxiyepiskop Covanni Çezare Paqatsi ilə görüş keçirilib. Görüşdə gələcək layihələr və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Monsinyor Paqatsiyə 2027-ci ildə Vatikan Dövlət Qubernatorluğu, Müqəddəs Pavel kilsəsi və digər Vatikan qurumları ilə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə məlumat verilib.

Səfər çərçivəsində "Bambino Gesu" Pediatrik Xəstəxanasının prezidenti Tiziano Onestinin təşəbbüsü ilə görüş keçirilib. Geniş tərkibli görüşdə səhiyyə sahəsində həyata keçirilməsi nəzərdə tutulan layihələr, eləcə də Azərbaycanla əməkdaşlığın perspektivləri müzakirə olunub və yeni razılaşmalar əldə olunub.

Səfər çərçivəsində əldə olunmuş razılaşmalar və keçirilmiş görüşlər Azərbaycan ilə Vatikan arasında mədəni irsin qorunması, elmi tədqiqatlar və səhiyyə sahələrində mövcud əməkdaşlığın genişləndirilməsi və yeni birgə təşəbbüslərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Mübariz ABDULLAYEV

“Heydər Əliyev məktəbi” layihəsinin dördüncü mərhələsinin açılış mərasimi keçirilib













Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində reallaşdırılan “Heydər Əliyev məktəbi” layihəsinin dördüncü mərhələsinin - qış məktəbinin açılış mərasimi keçirilib.

Əvvəlcə Gəncə şəhərində müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub.

Gəncə İdman Sarayında “Milli dövlətçilik və gənclər siyasəti: tarixi irsdən müasir hədəflərə” mövzusunda təşkil olunan layihənin açılış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva “Heydər Əliyev məktəbi” layihəsinin növbəti mərhələsi olan qış məktəbinin Nizami yurdu Gəncədə keçirilməsinin tarixi ənənələrə sadiqlik, zəngin mədəni irsin təbliği və gənclərin dövlətçilik ruhunda maarifləndirilməsi baxımından rəmzi məna daşıdığını vurğulayıb. O qeyd edib ki, layihə gənclərin intellektual potensialının artırılmasına, Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsinin, şəhərsalma və infrastruktur quruculuğu sahəsindəki fəaliyyətinin, eləcə də mədəni irsin qorunması istiqamətindəki xidmətlərinin gənclərə tanıdılmasına, həmçinin onların “Böyük Qayıdış” prosesində rolunun gücləndirilməsinə və partiya ətrafında daha sıx birləşməsinə töhfə verəcək. Diqqətə çatdırıb ki, qış məktəbi çərçivəsində iştirakçılar nəzəri panel müzakirələrində, praktiki memarlıq seminarlarında, ideya təqdimatlarında və intellektual yarışlarda iştirak edərək bilik və bacarıqlarını nümayiş etdirmək imkanı qazanacaqlar.

YAP Gəncə şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Bayram Aslanov vurğulayıb ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti gənc nəslin hərtərəfli inkişafı, yüksək intellektual səviyyəyə və vətənpərvərlik ruhuna malik şəxsiyyətlər kimi formalaşması üçün geniş imkanlar yaradır.

B.Aslanov Gəncənin zəngin tarixi-memarlıq irsindən, son illərdə şəhərdə həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işlərindən bəhs edərək bildirib ki, “Şəhərsalma və Memarlıq İli” çərçivəsində gənclərin bu sahədə bilik və bacarıqlarının artırılması, onların şəhərsalma və memarlıq sahəsinə marağının təşviq edilməsi ölkənin gələcək inkişafına mühüm töhfədir.

O, həmçinin qeyd edib ki, “Heydər Əliyev məktəbi” kimi maarifləndirici layihələr gənclərin milli-mənəvi dəyərlərə və dövlətçilik ideyalarına bağlılığının möhkəmləndirilməsində, eləcə də onların ölkənin ictimai-siyasi həyatında fəal iştirakının təşviqində mühüm əhəmiyyət daşıyır.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev belə bir maarifləndirici proqramın Gəncədə təşkil olunmasını yüksək qiymətləndirib və qış məktəbinin şəhərin ictimai-mədəni həyatına töhfə verəcəyini bildirib.

O qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Gəncənin sosial-iqtisadi inkişafına, şəhərin tarixi-memarlıq simasının qorunub saxlanılmasına, eləcə də gənclərin keyfiyyətli təhsil alaraq ölkənin ictimai həyatında və inkişaf proseslərində fəal iştirak etməsinə daim xüsusi diqqət yetirib.

S.Tomuyev qış məktəbinin işinə uğurlar arzulayaraq iştirakçıları proqram çərçivəsində əldə edəcəkləri bilik və təcrübədən ölkəmizin inkişafı və tərəqqisi naminə səmərəli istifadə etməyə çağırıb.

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxışında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərindən, eləcə də nəsillər arasında tarixi varisliyin qorunmasının əhəmiyyətindən bəhs edib. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik ideologiyasının gənc nəslə aşılanması, milli-mənəvi dəyərlərə və dövlətçilik ənənələrinə bağlılığın gücləndirilməsi müstəqil Azərbaycanın gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Arif Rəhimzadə qeyd edib ki, “Heydər Əliyev məktəbi” layihəsi gənclərin dövlətçilik düşüncəsinin formalaşmasına və möhkəmləndirilməsinə, onların fəal vətəndaş mövqeyinə malik, cəmiyyətin inkişafında yaxından iştirak edən şəxsiyyətlər kimi yetişməsinə töhfə verir.

YAP Mərkəzi Aparatının rəhbərinin müavini Ramilə Bədəlova “Heydər Əliyev məktəbi” layihəsinin artıq ənənəvi xarakter aldığını və gənclər tərəfindən böyük maraqla qarşılandığını bildirib.

O qeyd edib ki, layihə gənclərin yalnız nəzəri biliklərinin artırılmasına deyil, həm də onların liderlik keyfiyyətlərinin inkişafına, komanda şəklində işləmək bacarıqlarının formalaşdırılmasına, müasir çağırışlara uyğun təşəbbüs və ideyalar irəli sürmələrinə xidmət edən mühüm platformadır.

R.Bədəlova “Şəhərsalma və Memarlıq İli” çərçivəsində təşkil olunan qış məktəbinin iştirakçıların yaradıcı potensialının üzə çıxarılmasına, onların yeni bilik və təcrübə qazanmalarına, eləcə də gələcək fəaliyyətlərində uğur əldə etmələrinə geniş imkanlar yaradacağına əminliyini ifadə edib.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsi müdirinin müavini Rafael Gülməmmədov çıxışında gənclərin partiya fəaliyyətində fəal iştirakının və onların təşkilati bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyətindən bəhs edib. O vurğulayıb ki, Yeni Azərbaycan Partiyası gənclərin təşəbbüslərinin dəstəklənməsinə, onların müasir idarəçilik prinsiplərinə yiyələnməsinə və ictimai fəallığının artırılmasına xüsusi önəm verir.

R.Gülməmmədov qeyd edib ki, müxtəlif bölgələri təmsil edən gəncləri bir araya gətirən qış məktəbi iştirakçılar arasında təcrübə mübadiləsinin genişlənməsi, yeni dostluq və əməkdaşlıq əlaqələrinin qurulması, eləcə də ümummilli məqsədlər naminə birgə fəaliyyət vərdişlərinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Daha sonra qış məktəbinin proqramına uyğun olaraq iştirakçılar üçün müxtəlif mədəni-əyləncəli tədbirlər təşkil olunub.

Eyni zamanda, Vətən müharibəsində qazanılmış tarixi Zəfərə həsr olunan “44” bədii filmi nümayiş etdirilib.


“Fitch Ratings”in 2027-ci ilə dair proqnozları

Gələn il kredit reytinqləri “neytral” səviyyədə qalacaq

“Fitch Ratings” 2027-ci il üçün qlobal kredit reytinqləri üzrə proqnozunu ictimaiyyətə təqdim edib. Beynəlxalq reytinq agentliyi qlobal iqtisadi artımın sabit qalacağı və inflyasiya təzyiqlərinin azalacağı gözləntiləri fonunda gələn il ölkələrin suveren kredit reytinqlərini “neytral” səviyyədə müəyyən edib.

Agentlik neft tədarükündə fasilələrin yaranması və süni intellektlə əlaqəli bazarlarda kəskin korreksiya ehtimalı kimi risklərə də diqqət çəkib. Bildirilib ki, qiymətləndirmə ABŞ ilə İran arasında hərbi gərginliyin və münaqişələrin müvəqqəti səngiyəcəyi fərziyyəsinə əsaslanır.

İnflyasiya təzyiqləri zəifləyəcək



“Fitch” qeyd edir ki, dünya üzrə ümumi daxili məhsulun artım tempinin, əsasən, sabit qalacağı gözlənilir. Neft qiymətlərinin azalmasının isə cari ilin ikinci yarısında yaranmış inflyasiya təzyiqlərini müəyyən qədər zəiflədəcəyi proqnozlaşdırılır. Körfəz regionundan neft tədarükündə yenidən ciddi fasilələrin yaranması ehtimalına da diqqət çəkilir. Belə bir vəziyyətin neft qiymətlərinin, inflyasiyanın, uçot faizlərinin və istiqraz gəlirliliyinin daha uzun müddət yüksək səviyyədə qalmasına səbəb ola biləcəyi bildirilir.

Bununla yanaşı, istiqraz faizlərinin bu ilin orta göstəricisindən yüksək səviyyədə qalması borclanma yükü ağır olan ölkələrdə maliyyə təzyiqlərini artıracaq. Gələn il qlobal iqtisadiyyatın təxminən 2,5 faiz artacağı proqnozlaşdırılır. Bununla belə, səhm bazarlarında və ya kapital xərclərində süni intellektlə əlaqəli kəskin korreksiya riskinin mövcud olduğu vurğulanır.

Agentliyin qiymətləndirməsinə görə, əksər ölkələrin hökumətləri müddəti başa çatan borclarını mövcud bazar faizləri ilə yenidən maliyələşdirməklə, dövlət borcunun orta effektiv faiz dərəcəsinin yüksəlməsinə səbəb olacaq. Bu isə büdcə kəsirlərinin artmasına, xüsusilə borc yükü yüksək və borclarının orta ödəmə müddəti qısa olan ölkələrdə dövlət borcunun ÜDM-ə nisbətinin sabitləşdirilməsinin və ya azaldılmasının çətinləşməsinə gətirib çıxara bilər.

Azərbaycanda maliyyə sabitliyi dayanıqlıdır

“Fitch Ratings” neft ixrac edən ölkələrin, o cümlədən Azərbaycanın iqtisadi-maliyyə vəziyyətinin sabit qalacağını fərz edir. Agentliyin ekspertlərinin qənaətinə görə, Azərbaycanda iqtisadi artımla bağlı proqnozlar dəyişməmiş qalır, 2026-cı ildə ümumi daxili məhsulun (ÜDM) 1,2 faiz təşkil edəcəyi fərz edilir. Əlavə dəyərin gələn il 1,6 faiz faiz artacağı proqnozlaşdırılır.

Agentlik Azərbaycanın maliyyə sektorunun potensial aktivlərin güclənməsi fonunda dayanıqlılığını qoruyub saxlayacağını bəyan edir. Qiymətləndirməyə görə, Azərbaycanın bank sektorunda Bazel III standartlarının tətbiqi kredit təşkilatlarının itkiləri udmaq qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirməkdədir. Bu amil bankların kredit reytinqləri üçün müsbət cəhət kimi qiymətləndirilir. Hazırda bu sektorun reytinqinin “BB”-dən “BB” səviyyəsinə yüksəldilməsi isə ortamüddətli perspektivdə likvidlik tələblərinin daha da güclənməsinə imkan verir. Əməliyyat mühitinin qiymətləndirilməsinin yüksəldilməsi bank sektorunun tənzimləyici bazasının və nəzarət mexanizmlərinin güclənməsini, habelə davamlı makroiqtisadi sabitliyi əks etdirir.

Ölkəmizin uzunmüddətli reytinqi yüksələcək

Onu da qeyd edək ki, “Fitch Ratings” beynəlxalq reytinq agentliyi Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqinin də yüksələcəyini gözləyir. Ötən il ölkəmizin reytinqini “BB+” səviyyəsində, müsbət proqnozla təsdiqləyən agentlik bildirir ki, Azərbaycanın çox güclü xarici balansı və fiskal mövqeyi, aşağı dövlət borcuna malik olması və suveren fondun (Dövlət Neft Fondu) böyük aktivlərinin dayanıqlılığı yüksək maliyyə çevikliyini dəstəkləyir ki, bu da sabit reytinq göstəricisinin müəyyən edilməsində əsas faktorlardır.

Mövcud kredit reytinqi ölkəmizin investisiya qabiliyyətinin yüksək göstəricisi kimi səciyyələndirilə, beynəlxalq səviyyəli investisiya reytinqi sayıla bilər. Bu, respublikamızın beynəlxalq statusa malik potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsinə də dərin əsaslar yaratmış olur. Eləcə də Azərbaycanın tədiyyə balansının cari balansı, iqtisadi artımın əldə olunması, xarici maliyyə öhdəliklərinin çevik idarə olunması və digər amillər isə reytinq şkalasına yeni baxışı labüd edir. Son bir ildə suveren aktivlərin 15 milyard dollara yaxın artması və 90 milyard dollara çatması isə reytinq əmsalının artacağına dərin əminlik yaradır. Həmçinin, ölkəmizin maliyyə sektorunun dözümlü olması, valyuta-bank sisteminin sağlamlığı, real sektorun bütün bölmələrində artım tempinin davam etməsi həyata keçirilən makroiqtisadi siyasətin səmərəliliyini yüksəldir.

“Fitch Ratings”in analitiklərinin qənaətinə görə, Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqi 2026-2027-ci illərdə də profisitlə davam edəcək. Bu vəziyyət suveren aktivlərin dayanıqlılığını da təmin edəcək. Növbəti illərdə enerji və qeyri-enerji gəlirlərinin sabitliyi fonunda ölkənin strateji ehtiyatları ÜDM-in 80 faizinə qədər yüksələcək. Azərbaycanın xalis aktivlərinin sabit qalması fiskal və tədiyyə balansının müsbət səviyyəsini dəstəkləyəcək.

Manatın məzənnəsi sabit qalacaq

“Fitch Ratings”in proqnozlarına görə, Azərbaycan manatının məzənnəsi ortamüddətli perspektivdə indiki nisbətdə qalacaq. Bununla yanaşı, manatın sabit məzənnəsinin qorunması üçün ölkənin iqtisadi blokunun, xüsusən də Mərkəzi Bankın güclü təsiredici və tənzimləyici prioritetləri mövcuddur. Azərbaycan Mərkəzi Bankı valyuta məzənnəsinin dayanıqlılığını təşviq edən alətləri optimallaşdırır, xüsusilə də valyuta bazarını və bank faizlərini yaxşılaşdırmaq üçün tənzimləyici alətləri çevik şəkildə saxlayır.

“Fitch Ratings”in reytinqində əsas faktorlardan biri kimi xarici borc amili də mühüm yer tutur. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 6 faizdən də aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli həddi sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir. Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir.

E.CƏFƏRLİ

Kiçik sahibkarlar üçün 5 illik vergi güzəştləri

2027-ci ildə kiçik sahibkarlıq subyektlərinə bəzi vergi güzəştlərinin tətbiqi nəzərdə tutulur. Belə ki, bir sıra hallarda kiçik sahibkarlar müəyyən səbəblərdən orta kateqoriyaya keçə bilməsələr də, uzun müddət stabil fəaliyyətlərini davam etdirirlər və hökumət onların dayanıqlı fəaliyyətinə dəstək məqsədilə vergi təşviqləri verməyi düşünür. Həmin dəstək tədbirləri çərçivəsində Vergi Məcəlləsinə dəyişiklik layihəsində yeni güzəşt mexanizmi öz əksini tapıb. Yeni mexanizmə əsasən, kiçik sahibkarlıq subyekti kateqoriyasında ən azı iki il fəaliyyət göstərən, vergi borcu olmayan və dövriyyəsi əvvəlki illə müqayisədə 30 faizdən çox azalmayan sahibkarlıq subyektlərinə gəlir (mənfəət) vergisi məbləğinin 25 faizi həcmində güzəşt veriləcək. Güzəşt 5 il müddətinə, vergi ili üzrə əmək münasibətləri pozulmadığı halda tətbiq olunacaq.

Vergi güzəşti kiçik sahibkarların fəaliyyətini sabitləşdirəcək, dövriyyənin süni şəkildə azaldılmasının qarşısını alacaq və rəsmi məşğulluğun qorunmasına şərait yaradacaq. Vergi borcu olmayan, əmək münasibətlərini pozmayan və stabil fəaliyyət göstərən subyektlərin dəstəklənməsi sahibkarların vergi öhdəliklərini könüllü yerinə yetirməsinə təkan verəcək.

Bir sıra vergi güzəştlərinin müddəti uzadılacaq

Gələn il Vergi Məcəlləsinə təklif olunan digər dəyişikliklərə əsasən, müddəti bitən vergi güzəştlərinə səmərəlilik baxımından yenidən baxılmaqla, müddəti bitən bəzi vergi güzəştlərinin müddəti yenidən 3 il uzadılacaq. Belə ki, "Formula 1" və "Formula 2" yarışları ilə əlaqədar güzəştlər daha 3 il qüvvədə qalacaq. 2018-ci il yanvarın 1-dən etibarən tətbiq edilən və ardıcıl olaraq uzadılan bu güzəştlər paketi həmin yarışların təşkili və keçirilməsi çərçivəsində əlavə dəyər vergisindən (ƏDV) və gəlir-mənfəət vergisindən azadolmanı nəzərdə tutur. Yarışların təşkili və keçirilməsi ilə bağlı qeyri-rezident şəxslərin (komandalar, təşkilatçılar və podratçılar) ƏDV və əsas mənbədən əldə etdikləri gəlirlər mənfəət və ya gəlir vergisindən azad edilib. Həmçinin, royalti ödənişləri üzrə güzəştlər də nəzərdə tutulub.

2027-ci ildə SVOP əməliyyatları üzrə ƏDV azadolması da qüvvədə saxlanılacaq. Azərbaycanda SVOP əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı üzrə ƏDV azadolması Vergi Məcəlləsinin 164.1.62-ci maddəsi ilə tənzimlənir.

Biznes və təsərrüfat subyektləri tələb olunan müvafiq təsdiqedici sənədi təqdim etməklə, 3 il müddətinə vergi güzəştini əldə edəcək. Həmçinin, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin, kəpəyin istehsalı və satışı, habelə heyvan və quş ətinin satışı üzrə ƏDV azadolması da güzəşt portfelinə daxildir. Yem və yem əlavələrinin satışı üzrə dövriyyələrə tətbiq olunan ƏDV-dən azadolma da eyni siyahıya aiddir.

Regionlarda otellərin əmlak vergisi 75 faiz azaldılır

Elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı üzrə ƏDV azadolması da daha 3 il qüvvədə qalacaq. "Tibbi sığorta haqqında" qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun, habelə siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondların vəsaiti hesabına tibbi xidmətlər və tədris bazası kimi fəaliyyət göstərən tibb müəssisələrində göstərilən tibbi xidmətlərə də ƏDV azadolması tətbiq olunacaq. Həmçinin tibb sektorunda fəaliyyət göstərən şəxslər tərəfindən nağdsız ödənişlər əsasında formalaşan dövriyyənin 50 faizinin vergi tutulan dövriyyədən çıxılması mümkün olacaq ki, bu da güzəşt deməkdir. Regionlarda otel fəaliyyətində istifadə edilən daşınmaz əmlaklara görə əmlak vergisinin 75 faiz azaldılması da bu tipli güzəşt növü sayıla bilər. Xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri tərəfindən həyata keçirilən dəmir yolu-avtomobil kombinə edilmiş tranzit daşımaları üzrə yol vergisindən azadolma isə daha 2 il müddətinə nəzərdə tutulub.



Zərgərlik məmulatları üzrə vergi güzəşti

Növbəti ildə vergi güzəştləri paketində qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalına tətbiq olunan ƏDV azadolması da yer alır. Eləcə də platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın idxalına tətbiq olunan aksiz azadolması tətbiq olunacaq.

Ümumilikdə, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq və invesitisiya fəaliyyətinin təşviqi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasından ibarətdir. Bu hədəflər Azərbaycanın dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün güclü potensial ehtiva edir.

E.CƏFƏRLİ

Referendumun taleyi sual altındadır

Ermənistan parlamentində müxalifət bloku konstitusiya dəyişikliklərinə əngəl yaradır

Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması, o cümlədən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması bütövlükdə regionun gələcəyi üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan regionda sülhün əldə edilməsi üçün praktiki addımlar atıb. Ölkəmiz hər zaman sülhə sadiqlik göstərib, problemlərin danışıqlar yolu ilə həllinə tərəfdar kimi çıxış edib. Təsadüfi deyil ki, Azərbaycanla Ermənistan arasındakı sülh prosesi də məhz ölkəmizin təşəbbüsü ilə başlayıb.

Vaşinqton görüşündən sonra...


Ötən ilin avqust ayında baş tutmuş Vaşinqton Sülh Sammitində ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamə, həmçinin "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin paraflanması tarixi hadisədir. Bu görüşdən sonra 30 il ərzində davam edən münaqişə tamamilə bitib, xalqlarımız üçün sülhün, qarşılıqlı etimad dövrünün əsası qoyulub. Həmin görüşdən sonra ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir. Artıq hər iki cəmiyyət sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Belə ki, artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir.

Sülh sazişinin imzalanmasına yeganə maneə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının yer almasıdır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, sülh sazişi Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılandan sonra imzalana bilər. Rəsmi İrəvan isə uzun müddət idi ki, yeni konstitusiya layihəsinin üzərində iş getdiyini bildirirdi. Artıq yeni konstitusiya layihəsi erməni ictimaiyyəti üçün açıqlanıb. Müsbət haldır ki, yeni layihədə Müstəqillik Bəyannaməsinə istinad yoxdur. Hansı ki, bu sənədin preambulasında Azərbaycana qarşı ərazi iddiaları yer alırdı.

Paşinyan istefa verəcəkmi?

Lakin Ermənistan müxalifəti, revanşistlər yeni layihəyə qarşı çıxırlar. Ermənistan parlamentində referendumun keçirilməsinə qərar verilməsi üçün hakim partiyanın yetərli səsi yoxdur. Referendumla bağlı qərarın verilməsi üçün parlamentdə ümumi deputat sayının üçdə ikisinin, yəni 105 deputatdan azı 70-nin dəstəyi tələb olunur. Halbuki hakim Vətəndaş Müqaviləsi Partiyasının parlamentdə 64 mandatı var. 6 səsə ehtiyac var, amma müxalifət bloku bu səsləri vermək fikrində deyil. Xatırladaq ki, müxalif siyasi qüvvələrdən ibarət koalisiya yeni konstitusiya layihəsini rədd edib. Bu siyasi qüvvələrin bəyanatı "Ermənistan" bloku tərəfindən yayılıb. "Biz xarici tələblər əsasında diktə edilmiş yeni konstitusiyanı qəti şəkildə rədd edirik", - deyə, qrupun bəyanatında bildirilib. Siyasi qüvvələr parlament müxalifətinin "milli ləyaqəti alver mövzusuna çevirməyə" qarşı çıxan prinsipial mövqeyinə, eləcə də xarici təzyiqlərə və "Azərbaycanın tələbi ilə yeni konstitusiyanın qəbul edilməsinə qarşı birləşmək əzminə həmrəylik" ifadə ediblər. Qeyd olunub ki, yaxın günlərdə müxalif siyasi qüvvələr koalisiyası bu məsələyə həsr olunmuş iclas keçirəcək.

Əgər digər siyasi qüvvələrdən də bu qərara lazımi dəstək verilməsə, konstitusiya islahatları ilə bağlı referendumun keçirilməsi dalana dirənə bilər. Belə olarsa, sülh sazişinin imzalanması da mümkün olmayacaq. Paşinyan müxalifətə müraciət edərək onların referendumun keçirilməsinə mane olmamağa çağırıb. O deyib ki, qərarı erməni xalqı verməlidir. Əgər erməni xalqı yeni konstitusiya layihəsini dəstəkləməyəcəksə, Paşinyan vəzifəsindən istefa verəcəyini açıqlayıb. Paşinyan onu da qeyd etdi ki, əgər xalq yeni konstitusiyaya səs verərsə, o, sülh sazişini imzalayacaq və sonra istefa verəcək.



Cənubi Qafqaz ölkəsinə 250 milyon avro...

Avropa Bankı kiçik və orta sahibkarlara kredit verəcək

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 2032-ci ilə qədər Cənubi Qafqaz ölkələrində "Biznesdə gənclər" (YiB) proqramının həyata keçirilməsinə 250 milyon avroya qədər vəsait yönəltmək niyyətindədir. Bu barədə AYİB-in Gender bərabərliyi və iqtisadi inklüzivlik üzrə direktoru Sonya Cordan-Kirvan bildirib. Onun sözlərinə görə, maliyyələşdirmə Azərbaycan, Ermənistan və Gürcüstanda fəaliyyət göstərən 15 tərəfdaş bank vasitəsilə təqdim ediləcək. Proqramın əsas diqqəti paytaxt regionlarından kənarda və iqtisadi cəhətdən daha az inkişaf etmiş zonalarda fəaliyyət göstərən mikro, kiçik və orta müəssisələrin dəstəklənməsinə yönəldilib.

S.Cordan-Kirvan bildirib ki, AYİB Azərbaycanda insan kapitalının gücləndirilməsinə, qadınların iqtisadiyyatın texniki və yüksək gəlirli sektorlarına cəlb olunmasına, o cümlədən Abşeron yarımadasından kənarda gənclər üçün yeni iş yerlərinin yaradılmasına yönəlmiş bir sıra təşəbbüslər həyata keçirir. Bankın bu ölkədə strateji yanaşması regionlarda kiçik biznesə maliyyə dəstəyinin investisiya layihələrinə inteqrasiya olunmuş məsləhət proqramları və təlim tədbirləri ilə uzlaşdırılmasına əsaslanır. Yeri gəlmişkən, Avropa Bankı bir müddət əvvəl Azərbaycanda kiçik və orta biznesin maliyyələşdirilməsində birbaşa maliyyə təminatı məqsədilə "AccessBank"a 75 milyon avro həcmində portfel vəsait yönəldib. Həmin vəsaitin birbaşa kiçik və orta sahibkarlığın maliyyə ehtiyaclarının qarşılanmasına yönəldilməsi nəzərdə tutulur.

AYİB 10 ayda Azərbaycana 879 milyon avro kapital ayırıb

Qeyd edək ki, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı kredit portfeli 2026-cı ilin ötən 10 ayı üzrə 879 milyon avro təşkil edib. Portfeldə özəl sektorun payı 40 faizdən 41 faizə yüksəlib. Kredit portfelinin 784 milyon avrosu və ya 89 faizi dayanıqlı infrastrukturun inkişafına, 65 milyon avrosu və ya 7 faizi isə maliyyə institutlarına yönəldilib. Hazırda bankın ölkəmizdə 35 aktiv layihəsi üzrə maliyyələşmə davam etdirilməkdədir. AYİB-in 2026-cı ilin ötən 10 ayı üzrə sərmayələrini də nəzərə aldıqda, ümumilikdə, Azərbaycana yatırdığı investisiyaların həcmi 3 milyard 831 milyard avroya çatıb.

Bankın Azərbaycandakı əsas maliyyələşmə prioritetləri qeyri-neft sektorunun inkişafı, mühüm infrastrukturların, o cümlədən nəqliyyat və kommunikasiya sahələrində regional layihələrin dəstəklənməsi, yerli maliyyə institutlarının gücləndirilməsi və "yaşıl iqtisadiyyat"a keçidin təmin olunmasıdır.

T. Kayris Azərbaycanın AYİB üçün əhəmiyyətli ölkə olduğunu, maliyyələşdirdiyi 200-dən artıq layihə üzrə investisiya portfelinin 3,8 milyard avrodan çox olduğunu bildirib. Hazırda bankın strateji plana uyğun olaraq ölkəmizdə özəl sektorun təmsilçiləri olan kiçik müəssisələrlə, gənclərlə, qadınlarla daha çox maliyyə dəstəyinin göstərilməsi üzərində işlər aparılır. Yaxın vaxtlarda icrasına başlanması gözlənilən "Gənclər biznesdə" (YinB) proqramı çərçivəsində gənc sahibkarların maliyyə ehtiyacları ödəniləcək. Proqram maliyyə resurslarına çıxışın genişləndirilməsi ilə yanaşı, gənc biznesə konsaltinq dəstəyi və təlimlər vasitəsilə qeyri-maliyyə maneələrinin aradan qaldırılmasını da hədəfləyir.

Qara dəniz kabelinə maliyyə dəstəyi

AYİB Qara dəniz kabeli adlandırılan "Yaşıl Enerji Dəhlizi" (Xəzər-Qara dəniz-Avropa" yaşıl dəhlizi) layihəsinin maliyyələşdirilməsində də aktiv maliyyə təchizatçısı olmağa hazırdır. Bankın Qafqaz üzrə direktoru Tomas Kayris bildirib ki, layihənin texniki-iqtisadi əsaslandırma (TİƏ) fazası başa çatdıqdan sonra maliyyələşdirmə qərarı verilə bilər. Bankın töhfəsi birbaşa maliyyələşdirmə ilə məhdudlaşmaya bilər. Avropa Bankı layihənin strukturunun formalaşdırılmasına kömək etməyə, ekoloji və sosial standartlar üzrə ekspert məsləhətləri ilə təmin etməyə, həmçinin xarici kapitalın cəlb edilməsinə dəstək göstərməyə hazır olduğunu bildirir.

"Gənclər biznesdə" proqramı

Azərbaycanda gənclərin sahibkarlıq subyektlərinin hazırkı maliyyələşmə həcmi 700 milyon avronu ötüb, lakin bu bazarın ümumi potensialı 1,5 milyard avrodan çox qiymətləndirilir.

Avropa Bankının inklüziv maliyyələşdirmə üzrə mütəxəssisi Vinçentso Lancella Azərbaycanda gənclərin biznes layihələrinə indiyə qədər təxminən 700 milyon avrodan çox həcmdə maliyyələşdirmə təmin edildiyini qeyd edib. Gənclərin təqdim etdiyi biznes layihələri üzrə qiymətləndirmə isə bu vəsaitin ehtiyaclarda xeyli az - təxminən 5 dəfə az olduğunu göstərir. Ona görə də, AYİB bu sahədə kreditləşmə bazarının artırılmasına dəstək verməyə çalışacaq, ən azı potensial dəyəri 1,5 milyard avronu ötən maliyyə təminatı yaradılacaq.

E.CƏFƏRLİ

Xaçatryan: Paşinyanın ehtiyac duyduğu 6 səsi verməyəcəyik

"Ermənistan" blokunun deputatı Sevak Xaçatryan isə bildirib ki, parlament müxalifəti Nikol Paşinyanın təklifini rədd edir. Onun sözlərinə görə, müxalifət hələ layihə açıqlanmamışdan əvvəl də konstitusiya dəyişikliklərinin əleyhinə olub. Xaçatryan əlavə edib ki, blokun bu məsələ ilə bağlı mövqeyi son vaxtlar dəfələrlə təsdiqlənib: "Biz təzyiq altında konstitusiyaya dəyişiklik edilməsinin əleyhinəyik və Nikol Paşinyanın ehtiyac duyduğu 6 səsi verməyəcəyik". Hakimiyyətin istədiyi nəticəni əldə edə bilmədiyi təqdirdə parlamentin buraxılmasına blokun hazır olub-olmadığı sualına cavab olaraq Xaçatryan Paşinyanın növbədənkənar seçkilər zamanı istefa verməyə hazır olduğunu xatırladıb: "Qoy, o istefa versin - sonrasına baxarıq". Deputat deyib ki, Paşinyan nə vaxt istefa verəcəyinə özü qərar verməlidir. O, müxalifətin planlaşdırdığı addımlarla bağlı təfərrüat verməkdən imtina edib: "Buna səbəblərdən biri odur ki, həmin addımların bir çoxu vəziyyətin necə inkişaf edəcəyindən asılı olaraq müəyyənləşəcək".

Əlbəttə, bütün bunlar Ermənistanın daxili işidir. Lakin nəzərə almaq lazımdır ki, sülh sazişinin imzalanmaması, Ermənistanın ölkəmizə qarşı ərazi iddialarının qüvvədə qalması regionu gələcək təhdidlərə sürükləyə bilər. Nəzərə alaq ki, Azərbaycan Konstitusiyasında heç bir ölkəyə, o cümlədən Ermənistana qarşı ərazi iddiası yoxdur. Belə olan halda, qarşı tərəf də sülh tərəfdarıdırsa, anoloji addım atmalıdır. Erməni tərəfi, o cümlədən müxaliflər anlamalıdır ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrin suverenliyinin və ərazi bütövlüyünün tanınmasıdır. Rəsmi İrəvan həqiqətən sülhün tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu nümayiş etdirməlidir. Əks halda, gələcək proseslər məhz Ermənistanın ziyanına olacaq.

Nardar BAYRAMLI

Rusiya ölkəmizdə birgə sənaye zonası yaratmaq istəyir

Tərəflər qarşılıqlı ticarətin artırılması perspektivlərini dəyərləndirib

İqtisadiyyat Nazirliyində keçirilən görüşdə Rusiya ilə sənaye və ticarət sahələrində ikitərəfli əməkdaşlıq imkanları nəzərdən keçirilib. İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bildirib ki, tərəflər arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələrdə əməkdaşlığın mövcud vəziyyəti olduqca qənaətbəxşdir və hədəflər üzrə nəzərdə tutulan layihələrin icrası daha yaxşı perspektivlər vəd edir. Tərəflər qarşılıqlı ticarətin artırılması və iki ölkənin işgüzar dairələri arasında tərəfdaşlığın inkişaf etdirilməsi perspektivlərini dəyərləndiriblər.

Rusiya Federasiyasının sənaye və ticarət nazirinin müavini Roman Çekuşov isə ölkələrimiz arasında sənaye, o cümlədən maşınqayırma, emal sənayesi, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə işbirliyinin genişləndirilməsi imkanlarının artırılmasını və birgə sənaye zonasının yaradılması təşəbbüsünü irəli sürüb.

İnvestisiya əməkdaşlığının müsbət dinamikası

Qeyd edək ki, Azərbaycan ilə Rusiya arasında sənaye sahəsində səmərəli əməkdaşlıq həyata keçirilməkdədir. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "Kamaz" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin həyata keçirilməsi qarşılıqlı sərmayə yatırılması sahəsində əhəmiyyət kəsb edir.

Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətlərindən biri ticarət-iqtisadi əməkdaşlıqdır. 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,9 milyard dollara çatıb. Eləcə də kənd təsərrüfatı məhsulları üzrə ticarətin dinamikasının artması Rusiya bazarının Azərbaycan qeyri-neft ixracının əsas istiqamətlərindən biri olaraq qaldığını təsdiqləyir. Hazırda Rusiya Federasiyasında Azərbaycanın ticarət nümayəndəliyi fəaliyyət göstərir, ticarət evləri mexanizmi tətbiq olunur. Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid stendi ilə Rusiyada keçirilən "Worldfood", "Prodexpo", "MosBuild" sərgilərində nümayiş etdirilir.

İnvestisiya əməkdaşlığının müsbət dinamikası da xüsusi əhəmiyyət kəsb edir. Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi 10,5 milyard dolları, o cümlədən qeyri-neft sektorunda 2,9 milyard dolları ötüb. İnvestisiya əməkdaşlığı müsbət dinamika nümayiş etdirir və Azərbaycanda 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqeləri möhkəmlənir, sanatoriya, sənaye və istehsal layihələri uğurla icra olunur.

Rusiya Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan sənaye layihələrində təmsil olunmaqdadır. Rus şirkətləri "Araz Vadisi İqtisadi Zonası"nda "KamAZ" servis mərkəzini yaradıb və sənaye zonasının imkanlarını genişləndirmək niyyətindədir. Bölgədə qurulan Zəngəzur dəhlizi də Rusiya üçün mühüm əhəmiyyət daşıyır. Bu, müasir infrastruktur rusiyalı sürücülər üçün rahat olacaq. Onlar yükləri İran, Naxçıvan və Türkiyə istiqamətində daha səmərəli şəkildə daşıya biləcəklər. Hesab edirəm ki, bu layihə bütün iştirakçı ölkələr üçün qarşılıqlı fayda verəcək və regional əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək.

E.CƏFƏRLİ

"Şimal-Cənub" Dəhlizi hər iki tərəf üçün strateji əhəmiyyət daşıyır

Azərbaycan və Rusiya regionun coğrafiyasını dəyişən müasir nəqliyyat marşrutlarında sıx tərəfdaşdır, nəqliyyat-logistikanın aparıcı arxitekturasına çevrilmiş "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı təkcə bu, iki ölkə üçün deyil, digər partnyorlar üçün də strateji əhəmiyyət daşıyır. Hazırda iştirakçı ölkələr bu dəhliz üzrə infrastrukturun modernləşdirilməsi və rəqəmsallaşdırması yönündə iradəli addımlar atmaqdadır, bu isə bölgədə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Dəhlizlə 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcminin azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacağı gözlənilir.



Yeri gəlmişkən, nəqliyyat-logistika imkanlarının şaxələndirilməsi məqsədilə bir müddət əvvəl tərəflər arasında avtomobil nəqliyyatı üçün elektron beynəlxalq yük qaiməsinin (e-CMR) tətbiqi üzrə şəraitin yaradılmasına dair "Yol Xəritəsi"nə dair sənəd imzalanıb. Sənəd ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsini, qarşılıqlı investisiyaların təşviqini, eləcə də müxtəlif sahələr üzrə birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Zəngəzur dəhlizi Rusiya üçün də əhəmiyyət daşıyır

Rəqəmsal dövlət hər evə çatmalıdır

Ev təsərrüfatlarının uçotunda yeniliklər və onun vətəndaşlar üçün əhəmiyyəti

2027-ci il yanvar ayının 1-dən Azərbaycanda ev təsərrüfatlarının uçotu ilə bağlı yenilənmiş qaydalar qüvvəyə minəcək. Bu dəyişikliklər barədə yayılan məlumatlarda əsas diqqət evlərdə kompüter, noutbuk və planşetlərin, eləcə də internetə çıxış imkanlarının qeydə alınmasına yönəlib. Lakin məsələ yalnız rəqəmsal cihazlarla məhdudlaşmır, ev təsərrüfatlarının uçotu daha geniş məlumatları əhatə edir: ailənin tərkibi, yaşayış şəraiti, torpaq sahələri, əmlak, nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası, saxlanan heyvanlar, quşlar, arı ailələri və istehsal olunan məhsullar da bu məlumatlar sırasındadır.

Bu yeniliklərin mahiyyətini düzgün anlamaq üçün əvvəlcə ev təsərrüfatlarının uçotunun nə olduğunu izah etmək lazımdır. Sadə dillə desək, dövlət hər bir yaşayış məntəqəsində insanların hansı şəraitdə yaşadığını, ailələrin tərkibini, hansı əmlaka və təsərrüfat imkanlarına malik olduğunu öyrənmək üçün mütəmadi məlumat toplayır. Bu məlumatlar ölkədəki sosial-iqtisadi vəziyyətin daha dəqiq qiymətləndirilməsinə kömək edir.



Qərarın hüquqi əsası və məqsədi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 may 2024-cü il tarixli 273 nömrəli qərarı ilə "Ev təsərrüfatlarının uçotu Qaydası" təsdiq olunub. Qərarın giriş hissəsində onun qəbul edilməsinin səbəbi də göstərilir. Sənəd "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa 2024-cü il 5 aprel tarixində edilmiş dəyişikliklərin və Prezidentin 16 aprel 2024-cü il tarixli 36 nömrəli Fərmanının müvafiq müddəalarının icrasını təmin etmək məqsədi daşıyır. Yəni bu qərar təsadüfən irəli sürülmüş ayrıca təşəbbüs deyil, qanunvericilikdə edilmiş dəyişikliklərin həyata keçirilməsi üçün hazırlanmış hüquqi mexanizmdir. Qaydanın əsas məqsədi ev təsərrüfatlarının uçotunun necə aparılacağını, bu işi hansı qurumların həyata keçirəcəyini, məlumatların hansı sənədlərdə qeydə alınacağını və uçotun hansı müddətdə aparılacağını müəyyən etməkdir. Qaydaya əsasən, uçot rayon, şəhər və şəhər rayonu icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri tərəfindən aparılır. Dövlət Statistika Komitəsi isə bu prosesdə istifadə olunan uçot sənədlərini və onların doldurulmasına dair göstərişləri təsdiqləyir.

Uçot hər il yanvarın 1-dən 30-dək, həmin ilin yanvar ayının 1-nə qədər olan vəziyyətə əsasən aparılır. Məlumatlar təsərrüfat başçısından və ya təsərrüfatın müvafiq hüquq və fəaliyyət qabiliyyətinə malik digər üzvündən sorğu yoluyla alınır. Ev təsərrüfatı deyiləndə yalnız bir ailənin üzvləri yox, eyni yaşayış sahəsində yaşayan, gəlir və əmlakını tam və ya qismən birləşdirən, qida və mənzil-kommunal xidmətləri kimi bir sıra ehtiyaclarını birgə ödəyən şəxs və ya şəxslər qrupu nəzərdə tutulur.

Uçot zamanı hansı məlumatlar qeydə alınır?

Ev təsərrüfatlarının uçotu yalnız ailədə neçə nəfərin yaşadığını müəyyənləşdirmək üçün aparılmır. Uçot sənədlərində yaşayış evləri və digər tikililər, torpaq sahələri, nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və təsərrüfatın digər göstəriciləri barədə məlumatlar da əks olunur. Xüsusilə kənd yerlərində yaşayan əhali üçün heyvandarlıq və arıçılıqla bağlı məlumatlar da əhəmiyyətlidir. Təsərrüfatda saxlanan iribuynuzlu və xırdabuynuzlu mal-qara, atlar, quşlar, arı ailələri və digər heyvan növləri barədə məlumatlar qeydə alınır. Bundan başqa, əvvəlki il ərzində heyvanların, quşların kəsimi və ya kəsim üçün satışı, süd və yumurta istehsalı, qoyun yununun qırxılması və barama istehsalı kimi göstəricilər də uçot sənədlərində nəzərə alınır. Bütün bunlar dövlətə kənd təsərrüfatının real vəziyyətini, ailə təsərrüfatlarının imkanlarını və regionların iqtisadi xüsusiyyətlərini daha dolğun qiymətləndirmək imkanı verir. Məsələn, müəyyən bir ərazidə neçə ailənin heyvandarlıqla məşğul olduğunu, nə qədər arı ailəsinin saxlandığını və hansı məhsulların istehsal edildiyini bilmək həmin sahələrin inkişafı üçün daha əsaslı qərarlar qəbul olunmasına kömək göstərə bilər. Eyni qaydada, yaşayış evləri, torpaq sahələri və digər əmlak barədə məlumatlar da ərazinin sosial-iqtisadi mənzərəsini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

2027-ci ildən hansı yeniliklər tətbiq olunacaq?

Dövlət Statistika Komitəsinin 13 oktyabr 2026-cı il tarixli 3-34/3-2-26/2026 nömrəli qərarı ilə təsərrüfat başına uçot sənədlərinə və onların aparılması qaydalarına dəyişiklik edilib. Qərarın 6-cı bəndinə əsasən, həmin dəyişikliklər 2027-ci il yanvarın 1-dən qüvvəyə minir. Yenilənmiş uçot sənədlərində ev təsərrüfatlarının kompüter, noutbuk və planşetlərlə təmin olunması, eləcə də internetə çıxış imkanları barədə məlumatların qeydə alınması nəzərdə tutulur. Başqa sözlə, dövlət ailələrin yalnız ənənəvi yaşayış və təsərrüfat göstəricilərini yox, müasir texnologiyalardan istifadə imkanlarını da öyrənəcək. Bu məqam xüsusilə vacibdir, çünki bu gün internet sadəcə əyləncə və ünsiyyət vasitəsi deyil; şagird dərs materiallarını əldə edir, tələbə elektron təhsil platformalarından istifadə edir, sahibkar müştərilərilə əlaqə saxlayır, vətəndaş dövlət xidmətlərinə müraciət edir, işçi isə məsafədən işləmək imkanı qazanır. Lakin bütün ailələrin belə imkanları eyni səviyyədə deyil. Bəzi yaşayış məntəqələrində internetə çıxış məhduddur, bəzi ailələrdə isə kompüter və digər zəruri avadanlıqlar yoxdur. Bu məlumatların toplanması rəqəmsal imkanlar baxımından hansı ərazilərin və əhali qruplarının geridə qaldığını müəyyənləşdirməyə kömək edə bilər. Məsələn, müəyyən kəndlərdə internetə çıxış imkanlarının zəif olduğu və ailələrin kompüterlə təminatının aşağı səviyyədə qaldığı üzə çıxarsa, bu göstəricilər gələcəkdə rabitə infrastrukturunun inkişafı və rəqəmsal xidmətlərin əlçatanlığının artırılmasıyla bağlı planlaşdırmada nəzərə alına bilər.

Burada bir məqamı da aydınlaşdırmaq lazımdır: söhbət evdə internetə qoşulan bütün cihazların ayrı-ayrılıqda qeydiyyata alınmasından getmir. Yenilənmiş uçotda əsas diqqət kompüter, noutbuk və planşetlərin mövcudluğuna, eləcə də internetə çıxış imkanlarına yönəlib. Cihazların markası, modeli, qiyməti, seriya nömrəsi və ya onların daxilində saxlanan şəxsi məlumatların qeydə alınması bu uçotun məqsədi deyil. Vətəndaşlardan hər dəfə yeni cihaz alanda ayrıca məlumat vermək də tələb olunmur.

Dövlət xidmətləri artıq mobil telefondadır

Azərbaycanda dövlət xidmətlərinin elektronlaşdırılması istiqamətində son illər mühüm addımlar atılıb. Bu gün bir sıra dövlət xidmətlərindən istifadə üçün vətəndaşın mütləq dövlət idarəsinə getməsinə ehtiyac qalmır - telefon və internet vasitəsilə sənədləri əldə etmək, müraciət göndərmək, elektron imzayla sənəd təsdiqləmək və müəyyən hüquqi əməliyyatları həyata keçirmək mümkündür. Bu istiqamətdə diqqət çəkən əsas platformalardan biri myGov-dur. Platforma dövlət qurumlarının müxtəlif elektron xidmətlərini və vətəndaş haqqında məlumatları vahid rəqəmsal mühitdə birləşdirir. Vətəndaş şəxsi kabinetinə daxil olaraq təhsil, əmək fəaliyyəti, sosial müdafiə, nəqliyyat və digər sahələrlə bağlı məlumatlarını əldə edə, mövcud elektron sənədlərindən istifadə edə bilər. 2026-cı ilin sentyabrında yayılan rəsmi məlumata görə, myGov platformasının istifadəçilərinin sayı 4 milyona çatmış, burada 430 dövlət xidməti və 102 məlumat bölməsi təqdim olunmuşdu. Bu göstəricilər rəqəmsal dövlət xidmətlərinə marağın və tələbatın artdığını göstərir.

Digər mühüm vasitə SİMA rəqəmsal imza platformasıdır. SİMA İmza mobil telefon vasitəsilə şəxsin kimliyini təsdiqləməyə və elektron sənədləri imzalamağa imkan verir. Gücləndirilmiş elektron imza ilə imzalanmış sənədlər qanunvericiliyə uyğun olaraq əl imzasıyla imzalanmış sənədlərlə eyni hüquqi qüvvəyə malikdir. Bu imkan vətəndaşın müxtəlif sənədləri məsafədən təsdiqləməsini, elektron xidmətlərdən daha rahat istifadəsini təmin edir.

ASAN Müraciət sistemi də vətəndaşların gündəlik həyatında rastlaşdığı problemlərin həllinə xidmət edir. Məsələn, yaşayış yerində yolun vəziyyəti, küçə işıqlandırması, kommunal xidmətlər, abadlıq və təmizliklə bağlı problem yaranarsa, vətəndaş bunu elektron xəritədə qeyd edərək aidiyyəti dövlət qurumuna göndərə bilər. Daha sonra müraciətin hansı mərhələdə olduğunu və ona necə baxıldığını izləmək mümkündür. Bu sistemin əsas üstünlüyü vətəndaşın problemi bildirmək üçün müxtəlif idarələrə getmədən müraciət edə bilməsidir.

Rəqəmsal xidmətlərin digər nümunəsi Mobil Notariat tətbiqidir. Bu tətbiq vasitəsilə vətəndaş bir sıra notariat əməliyyatlarını mobil telefonla elektron qaydada həyata keçirə bilər. Məsələn, nəqliyyat vasitəsindən istifadə, daşınmaz əmlaka sərəncam, bank əməliyyatları və digər məsələlərlə bağlı müəyyən etibarnamələri, eləcə də müxtəlif ərizələri rəsmiləşdirmək mümkündür. Beləliklə, qanunvericiliklə nəzərdə tutulan xidmətlər üzrə vətəndaş notariat ofisinə getmədən sənəd hazırlaya və elektron qaydada təsdiqləyə bilər. Tətbiqə SİMA İmza vasitəsilə daxil olmaq imkanı da yaradılıb.

Bu xidmətlərin hər biri dövlət-vətəndaş münasibətlərində vaxt itkisinin azaldılmasına, sənədləşmə prosesinin sadələşdirilməsinə və xidmətlərin daha əlçatan olmasına kömək edir. Ancaq onların imkanlarından istifadə üçün vətəndaşın internetə çıxışı, uyğun cihazı və müəyyən rəqəmsal bacarıqları olmalıdır. Məhz buna görə ev təsərrüfatlarının uçotunda rəqəmsal imkanların da nəzərə alınması aktualdır.

Rəqəmsallaşma ilə yanaşı, təhlükəsizlik də vacibdir

Dövlət xidmətlərinin elektron mühitə keçməsi yeni imkanlarla yanaşı müəyyən məsuliyyətlər də yaradır. Vətəndaş şəxsi məlumatlarını qorumağı, elektron imzasından düzgün istifadə etməyi, şübhəli keçidlərə daxil olmamağı və tanımadığı şəxslərə təsdiq kodlarını verməməyi bacarmalıdır. Çünki rəqəmsal xidmətlərin genişlənməsiylə yanaşı saxta internet səhifələri, dələduzluq cəhdləri və şəxsi məlumatların ələ keçirilməsi riski də artır. Bu səbəbdən rəqəmsal təhlükəsizlik yalnız texniki məsələ kimi qəbul edilməməlidir; insanların rəqəmsal savadlılığının artırılması, şəxsi məlumatların qorunması və elektron xidmətlərdən təhlükəsiz istifadə qaydalarının öyrədilməsi də vacibdir. Ev təsərrüfatlarının uçotu zamanı toplanan fərdi məlumatların işlənməsi və mühafizəsi isə "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və digər müvafiq normativ hüquqi aktlara uyğun həyata keçirilməlidir. Burada bir fərqi də nəzərə almaq lazımdır: ev təsərrüfatlarının uçotu özlüyündə vətəndaşların kibertəhlükəsizliyini təmin etmir, lakin toplanan məlumatlar ailələrin rəqəmsal imkanlarını və mövcud ehtiyaclarını müəyyənləşdirməyə kömək göstərə bilər. Bu göstəricilər gələcəkdə rəqəmsal maarifləndirmə tədbirlərinin, internetə çıxış imkanlarının genişləndirilməsi və təhlükəsiz elektron xidmətlərdən istifadənin təşviqiylə bağlı qərarların hazırlanmasında nəzərə alına bilər.

Dövlətin rəqəmsal imkanları hər bir vətəndaşa çatmalıdır

Ev təsərrüfatlarının uçotunun yenilənməsi ölkənin sosial-iqtisadi və rəqəmsal vəziyyətinin daha dolğun öyrənilməsi baxımından əhəmiyyət daşıyır. Bu prosesdə ailələrin tərkibi, yaşayış şəraiti, torpaq və əmlak göstəriciləri, heyvandarlıq və arıçılıq fəaliyyətiylə yanaşı kompüter və internet imkanlarının da qeydə alınması dövlətin cəmiyyət haqqında daha geniş məlumat əldə etməsinə şərait yaradır. Vacib olan yalnız məlumat toplamaq yox, həmin məlumatlardan düzgün istifadə etməkdir. Əgər uçot nəticəsində hansı ərazilərdə internetin zəif olduğu, hansı ailələrin kompüter imkanlarından məhrum qaldığı və hansı qrupların rəqəmsal xidmətlərdən istifadə etməkdə çətinlik çəkdiyi müəyyənləşdirilərsə, bu problemlərin həlli üçün daha məqsədyönlü tədbirlər görülə bilər.

Rəqəmsal dövlət yalnız elektron platformaların yaradılmasıyla formalaşmır, onun əsas göstəricisi həmin xidmətlərdən ölkənin hər bir bölgəsində yaşayan vətəndaşın rahat, təhlükəsiz və bərabər imkanlarla istifadə edə bilməsidir. Paytaxtda yaşayan vətəndaşla ucqar kənddə yaşayan insanın dövlət xidmətlərinə çıxış imkanları arasında fərq minimuma endirilməlidir.

Son illər Azərbaycanda vətəndaşların gündəlik həyatını asanlaşdırmaq, dövlət xidmətlərini daha əlçatan etmək və bürokratik prosedurları azaltmaq istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. ASAN xidmət mərkəzləri, myGov platforması, SİMA rəqəmsal imza, ASAN Müraciət və Mobil Notariat kimi layihələr bu siyasətin konkret nəticələridir. Artıq vətəndaş bir çox arayışı əldə etmək, müraciət göndərmək, sənəd imzalamaq və müəyyən etibarnamələri rəsmiləşdirmək üçün vaxtını idarələrdə növbə gözləməklə keçirmir, bu xidmətlər ona birbaşa evindən, iş yerindən və ya olduğu hər hansı məkandan dövlətlə əlaqə saxlamaq imkanı yaradır.

Bütün bu addımlar dövlət idarəçiliyinin müasir tələblərə uyğunlaşdırılmasına, vətəndaş məmnunluğunun artırılmasına və insanların vaxtına qənaət edilməsinə xidmət göstərir. Ən əsası, dövlət-vətəndaş münasibətlərində rahatlıq, operativlik və şəffaflıq prinsipləri getdikcə daha geniş tətbiq olunur. Ev təsərrüfatlarının uçotunun yenilənməsi də bu ümumi inkişaf prosesinin bir hissəsi kimi qiymətləndirilə bilər.

Azərbaycanın rəqəmsal inkişaf istiqamətində atdığı addımların başlıca məqsədi insan amilini ön plana çəkmək, vətəndaşın gündəlik həyatını asanlaşdırmaq və dövlət xidmətlərini onun ehtiyaclarına uyğunlaşdırmaqdır. Bu siyasət davam etdikcə rəqəmsal imkanlar daha geniş əhali qruplarını əhatə edəcək, dövlətlə vətəndaş arasında əlaqələr daha rahat və səmərəli olacaq. Nəticədə vətəndaşa keyfiyyətli xidmət göstərən müasir, çevik dövlət modeli daha da möhkəmlənəcək.



Kəramət QƏNBƏROV
Beynəlxalq hüquq üzrə ekspert

COP31-in nəticələrini dəstəkləməyən Aİ...

İqlim maliyyələşdirilməsi ilə bağlı tənqidlərlə üzləşib

Hazırda bütün dünyada ekoloji çağırışların aktuallığı heç vaxt olmadığı qədər artıb. Bu da onunla bağlıdır ki, qlobal istiləşmənin və güclü sənaye inkişafının nəticəsi olaraq atmosferdə tarazlıq pozulub. Artıq dərk olunur ki, bu gün mənfi proseslərə qarşı müvafiq tədbirlər görülməsə, sabah gec olacaq. Burada qlobal təhdidə qarşı məhz qlobal həmrəyliyə böyük ehtiyac var.

Həmrəylik qlobal problemin həllində əsas amildir

Qlobal iqlim dəyişikliklərinin fəsadlarının qarşısını yalnız səyləri və imkanları birləşdirməklə almaq mümkündür. Meydana çıxan çağırışların əsas mahiyyəti ondan ibarətdir ki, qabaqlayıcı tətbirlər həm beynəlxalq müstəvidə, həm də milli səviyyələrdə koordinasiya edilərək davamlı şəkildə həyata keçirilməlidir. Dünya ölkələri problemlərdən çıxış yolunu tapmaq üçün iqlim sammitləri çərçivəsində mütəmadi olaraq bir araya gəlir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı da bu məqsədə xidmət edir. Yeri gəlmişkən, bu ay bir neçə gün ərzində Türkiyənin Antaliya şəhərində COP31 keçirildi. Dünyanın bir çox liderləri də tədbirə qatılmış oldu.

Xatırladaq ki, BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflər Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir. Qlobal istiləşmənin və güclü sənaye inkişafının yaratdığı ekoloji fəlakətlərin qarşısını almaq üçün BMT səviyyəsində həyəcan təbili çalınır. İndiyədək qurum dünya ölkələrinin səylərini əlaqələndirmək məqsədilə bir sıra sənədlər, o cümlədən də İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası qəbul edib. Həmçinin Konvensiyanın Kioto Protokolu təsdiqlənib. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün Doha əlavəsi qəbul olunub. Eyni zamanda, 22 aprel 2016-cı il tarixində Paris razılaşması imzalanıb. Razılaşmanın məqsədi (2-ci maddəyə görə) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Çərçivə Konvensiyasının "tətbiqini artırmaq", xüsusən qlobal orta temperatur artımını 2 °C-dən "çox aşağıda" saxlamaq və məhdudlaşdırmaq üçün "səy göstərmək"dən ibarətdir.



Azərbaycanın uğurlu nümunəsi...

COP31-in Liderlər Sammitinə ev sahibliyi edən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışında iqlim sammitlərinin təşkilində təcrübəsini bölüşdüyünə görə Azərbaycana təşəkkür etməsi təsadüfi deyil. Çünki Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfələrini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Bundan əlavə, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Eləcə də yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir.

Digər tərəfdən, Azərbaycan bu sahədə böyük təcrübəyə sahibdir. Məlumdur ki, 2024-cü ilin 11-23 noyabr tarixlərində ölkəmizdə COP29 keçirildi. 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı bu tədbir təşkilatçılıq baxımından ən yüksək səviyyədə oldu. COP29-da qlobal iqlim dəyişiklikləri ilə bağlı mübarizə üçün mühüm qərarlar qəbul olunub. Bakıda COP tarixində bir sıra ilklərə imza atıldı. Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunması COP-un ən böyük uğurlarından biridir. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. Bundan başqa, 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq.

Aİ nədən narazıdır?

Lakin təəssüf ki, Türkiyədə keçirilən COP31-də yekun razılaşmalarla bağlı fikir ayrılıqları olub. Belə ki, Avropa İttifaqı (Aİ) BMT-nin İqlim Dəyişmələri üzrə 31-ci konfransının (COP31) yekun sənədini yetərincə iddialı hesab etməyib və qalıq yanacaq mənbələrindən ekoloji cəhətdən təmiz alternativlərə keçidlə bağlı aydın öhdəliklərin olmaması səbəbindən onu dəstəkləməkdən imtina edib. Avropa Komissiyasının nümayəndəsi Anna-Kaysa İtkonen qeyd edib ki, Avropa İttifaqı qalıq yanacaqdan imtina edilməsi ilə bağlı xatırlatmanın olmadığı və bununla da iqlim çağırışlarının miqyasına cavab verməyən yekun sənədi təsdiqləyə bilməzdi. Onun sözlərinə görə, Avropa İttifaqı son ana qədər danışıqlar prosesində fəal iştirak edib və daha iddialı ifadələrin yer almasına nail olmağa çalışıb, lakin mətndə əhəmiyyətli dəyişikliklərin qeyri-mümkün olduğuna əmin olduqdan sonra sənədi təsdiqləməmək barədə qərar qəbul edib.

Bununla yanaşı, Aİ-nin iqlim maliyyələşdirilməsi ilə bağlı mövqeyi bir sıra inkişaf etməkdə olan ölkələr və iqlim təşkilatlarının nümayəndələri tərəfindən tənqidə səbəb olub. Onlar inkişaf etmiş dövlətlərin iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalan dövlətlərin xeyrinə əlavə maliyyə öhdəlikləri götürməyə kifayət qədər hazır olmadığını vurğulayıblar.

Əsas yekun siyasi sənəd üzrə fikir ayrılıqlarına baxmayaraq, COP31 çərçivəsində iqlim gündəliyinin bir sıra istiqamətləri üzrə razılaşmalar əldə etmək mümkün olub. Xüsusilə tərəflər iqlim dəyişmələrinə uyğunlaşma üzrə qlobal hədəf göstəricilərinin hazırlanması üçün işçi qrupunun yaradılması, eləcə də ədalətli keçid mexanizmi üzərində işin davam etdirilməsi barədə razılığa gəliblər. Bundan başqa, Paris Sazişi çərçivəsində iqlim hesabatlılığının şəffaflığı haqqında bəyannamə qəbul edilib.

Aİ və onun üzvü olan dövlətlərin COP31 üzrə birgə bəyanatında vurğulanır ki, yekun layihə Paris Sazişinin tələblərinə cavab vermirdi və qlobal istiləşmənin 1,5 dərəcə Selsi həddinə mümkün qədər yaxın saxlanılması üçün zəruri olan tədbirlərin təxirəsalınmazlığını əks etdirmirdi. Bununla belə, Avropa İttifaqı çoxtərəfli iqlim prosesindən imtina etmək niyyətində olmadığını da açıqlayıb.

Nardar BAYRAMLI

Paris Yeni Kaledoniyaya çağırılmamış qonaqlar dəvət edir - məqsəd nədir?

Fransa hakimiyyətinin prezident Emmanuel Makronun rəhbərliyi ilə həyata keçirdiyi siyasət Yelisey Sarayının bəyan etdiyi "demokratiya", "bərabərlik", "qardaşlıq", "azadlıq" kimi şüarlarla daban-dabana ziddiyyət təşkil edir. Məlumdur ki, bu ölkənin Afrikada, dənizaşırı ərazilərdə təxminən beş əsri əhatə edən müstəmləkəçilik tarixi var. Müasir dünyəvi təsəvvürlər baxımında Fransanın nəzarətində saxladığı ərazilərdə törətdiyi sərhəd tanımayan müstəmləkə cinayətləri indi başqa ölkələrə demokratiya, hansısa liberal dəyərlər ixrac etmək iddialarında bulunan Fransanın tarixində qara ləkədir. Yelisey Sarayı bu ləkəni yalnız yüz illər boyunca sümürmə siyasəti apardığı ərzilərin xalqlarından üzr istəməklə və vurduğu maddi, mənəvi zərərlərə görə təzminatlar ödəməklə yuya bilər.

Lakin izlənilən proseslərdən aydın şəkildə görünür ki, Fransa hakimiyyəti və şəxsən E.Makron belə kübar davranışlardan uzaqdır. Əksinə, Yelisey Sarayından gələn mesajlar təsdiqləyir ki, Makron iqtidarı müstəmləkəçilik siyasətinə sadiq qalmaqdadır və ona yeni forma verməklə köhnə və mahiyyət etibarı ilə daha qəddar məzmunda davam etdirməkdə israrlıdır.

Bunu son illərdə Yeni Kaledoniyada baş verənlər bir daha təsdiqləyir. Bakı Təşəbbüs Qrupunun (BTQ) verdiyi məlumatlardan aydın olur ki, Makronun siyasi sifarişlərini əsas tutan Yelisey Sarayı bu diyarda Fransanın müstəmləkəçiliyini əbədi etmək üçün müxtəlif planlar qurur və aborigen əhaliyə qarşı diskriminasiya siyasətini daha da sərtləşdirir. Kanakidə yeni məskunlaşdırma siyasətinə rəvac verilməsi də bu qəbildəndir.

Yelisey Sarayı ada ölkəsinin onun orbitindən çıxmaq istəyini əsla qəbul etmir

Birləşmiş Millətlər Təşkilatı (BMT) bəşər sivilizasiyasının hazırkı mərhələsində dünyada dekolonizasiya prosesini sürətləndirməyə davamlı çağırışlar edir. Bu istiqamətdə ardıcıl səylərin nəticəsi olaraq 1945-ci ildən etibarən 100-dən çox ölkə müstəqillik əldə edib və bu gün getdikcə daha çox insan öz müqəddəratını təyinetmə hüququnu həyata keçirir. Bununla belə, müstəmləkəçiliyin nəticələri iqtisadi bərabərsizlik, irqçilik və bəzi xalqların beynəlxalq səviyyədə qərarların qəbulunda məhdud iştirakı şəklində hələ də hiss olunur.

Hazırda dünyada 17 özünüidarəetmə hüququndan istifadə edə bilməyən ərazi var. BMT-də hesab edirlər ki, bu ərazilərin gələcəyi həmin ərazilərin nümayəndələri, idarə edən dövlətlər və BMT-yə üzv dövlətlər arasında inklüziv dialoq yolu ilə, hər bir ərazinin özünəməxsus ehtiyacları nəzərə alınmaqla və BMT Nizamnaməsinə və Baş Assambleyanın qərarlarına uyğun şəkildə müəyyən edilməlidir.

Rəsmi Parisin Yeni Kaledoniyada həyata keçirdiyi neokolonializm siyasəti də BMT-nin çağırışları ilə ziddiyyət təşkil edir. Yelisey Sarayının dənizaşırı ərazilərdə ən uzaq müstəmləkələrindən biri sayılan Yeni Kaledoniya (ada ölkəsi Fransadan təxminən 20 min kilometr uzaqda yerləşir) uzun illərdir ki, Fransanın müstəmləkəçilik siyasətindən ciddi əziyyət çəkir. Təxminən 250 min əhaliyə və 20 min kvadratkilometr əraziyə malik olan Yeni Kaledoniya adası Sakit okeanda Avstraliya ilə Yeni Zelandiyanın arasında yerləşir. Hələ 3500 il əvvəl məskunlaşmış bu adanın sakinlərini "melazeniyalılar" adlandırırlar. Ada 1774-cü ildə məşhur ingilis səyyahı Ceyms Kuk tərəfindən kəşf olunub və Kaledoniya adlandırılıb.

Fransız missionerlərinin adaya ayaq açması XIX əsrin ortalarına təsadüf edir. Missionerlərin adaya gəlişi ilə yerli sakinlərin qara günləri başlayıb. 1853-cü ildə isə Fransa adanı özünün müstəmləkəsi elan edib. XIX əsrin sonuna qədər Fransa adanın yerli sakinlərini istismar etməklə yanaşı, qatı cinayət törətmiş məhkumlarını da bu adaya sürgün edirdi. XX əsrin əvvəllərindən başlayaraq Fransa adada tapılmış faydalı qazıntı yataqlarını da istismar etməyə başlayıb. Ada qızıl, bürünc, xrom, nikel, dəmir və s. filiz ehtiyatları ilə zəngindir. Fransa digər müstəmləkələrində olduğu kimi, burada da təbii sərvətləri talayıb, yerli əhalidən isə ucuz işçi qüvvəsi kimi istifadə edib.

Ada sakinləri ötən əsrin 80-ci illərindən etibarən Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etirazlara başlayıblar. Onların yeganə məqsədi Fransanın sərhəd tanımayan zülmündən birdəfəlik qurtulmaqdır. Lakin Yelisey Sarayı ada ölkəsinin onun orbitindən çıxmaq istəyini əsla qəbul etmir. Digər dənizaşırı koloniyalarında (Fransa ərazisinin 18 faizini təşkil edən dənizaşırı koloniyalarda təxminən 2,6 milyon nəfər əhali yaşayır) olduğu kimi, Yeni Kaledoniyada da neokolonializm siyasətini getdikcə daha da sərtləşdirir. Rəsmi Parisin əsas məqsədi zəngin sərvətlərə malik olan bu ölkədə kanakları assimilyasiyaya uğratmaq və beləliklə də, yerli qəbilələrin fəallığına birdəfəlik son qoymaqdır.

Bu dəfə də rəsmi Parisin xeyir-duası ilə həyata keçirilən yeni təşəbbüs - çağırılmamış qonaqların Yeni Kaledoniyaya dəvət edilməsi kanak xalqının müstəqilliyini müdafiə edən siyasi qüvvələrin sərt etirazı ilə qarşılanıb. Kanak Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) nümayəndələri bunu Fransanın tarixi məskunlaşdırma siyasətinin davamı kimi qiymətləndirirlər. Onlar xatırladıblar ki, XIX əsrdən etibarən, xüsusilə 1970-ci illərdə Fransadan əraziyə əhalinin kütləvi şəkildə köçürülməsi nəticəsində kanaklar öz tarixi torpaqlarında azlığa çevriliblər.

Belə ki, hələ 1972-ci ildə Fransanın ozamankı Baş naziri Pierre Messmer fransızların Kanakiyə kütləvi köçürülməsini təşviq edərək yerli xalqın müstəqillik uğrunda mübarizəsini zəiflətməyə çalışmışdı. Müstəqillik tərəfdarları hesab edirlər ki, Makron rejimi və onun yerli əlaltıları həmin müstəmləkəçi siyasəti yeni formada davam etdirməyə çalışırlar.

FLNKS nümayəndələri yeni məskunlaşdırma siyasətinin kanak xalqının demoqrafik vəziyyətinə mənfi təsir göstərəcəyini, eləcə də onsuz da mənzil çatışmazlığından əziyyət çəkən yerli əhalinin problemlərini daha da ağırlaşdıracağını bildirərək kampaniyanın dərhal dayandırılmasını tələb edirlər.

Məsələ Fransanın özündə də kəskin tənqid hədəfinə çevrilib. Fransa Milli Assambleyasının deputatı Bastien Lachaud bu kampaniyanı yeni məskunlaşdırma yolu ilə müstəmləkəçilik cəhdi adlandırıb.

Təhlilçilərin fikrincə, Fransanın hakim dairələrinin himayəsi altında iqtisadi inkişaf adı ilə pərdələnən bu təşəbbüs, Yeni Kaledoniyanın gələcək siyasi statusu ilə bağlı mübahisələrin davam etdiyi bir vaxtda, kanak xalqının öz müqəddəratını təyinetmə hüququna qarşı yönəlmiş növbəti kolonial təzyiq vasitəsidir.

Mübariz FEYİZLİ

Əvvəl "konstitusiya islahatları", indi isə yeni məskunlaşdırma planı

Bədnam "yeni məskunlaşdırma" planı da bu siyasətin tərkib hissəsidir. Plana əsasən, Makron rejiminin dəstəklədiyi Fransayönümlü qüvvələrin rəhbərlik etdiyi Cənub Əyaləti Fransa vətəndaşlarını əraziyə daimi yaşamaq üçün cəlb etmək məqsədilə geniş reklam kampaniyasına başlayıb. Əyalət rəhbəri Sonia Backesin təşəbbüsü ilə Paris metrosunda "Həyatınızı dəyişin, ölkənizi yox" və "Sakit okeandakı kiçik Fransa" şüarlarının yer aldığı 300 reklam plakatı yerləşdirilib.

Bakı Təşəbbüs Qrupundan bildirilib ki, Makron rejiminin neokolonial siyasətinin əsas icraçılarından olan Sonia Backes bu kampaniyanı Yeni Kaledoniyadakı iqtisadi böhran və pensiya sisteminin maliyyə çətinlikləri ilə əsaslandırıb. O, ilk növbədə, Fransadan yüksəkgəlirli təqaüdçüləri, daha sonra isə müxtəlif peşə sahiblərini və sahibkarları əraziyə cəlb etməyi planlaşdırır.

Xatırladaq ki, Yelisey Sarayı bundan əvvəl Yeni Kaledoniyada eyni məqsədə xidmət edən "konstitusiya islahatları" keçirmək qərarına gəlmişdi. Bu "islahatları" keçirməklə mərkəzi hakimiyyət müxtəlif illərdə məqsədli şəkildə adaya köçürülən gəlmələrə də seçki hüququnu tanımaq istəyirdi. Məqsəd isə əlbəttə ki, insan hüquqlarının qorunması yox, Yeni Kaledoniyada aborogen sakinlərin mənafeyinə daha bir zərbə vurmaq və burada demoqrafik vəziyyəti dəyişmək idi. Yalnız yerli sakinlərin kəskin müqavimətindən sonra Makron geri çəkilmək və "islahatları" müvəqqəti dayandırmaq məcburiyyətində qaldı.



Məkrli siyasətə qarşı kəskin etirazlar

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





Yeni dövrün böyük sərvətlərindən biri...

İnformasiya dünyasında doğru ilə yanlışın savaşı

Səhər gözümüzü açdığımız andan etibarən xəbər lentlərinə nəzər salır, sosial şəbəkələrdə paylaşımları izləyir, müxtəlif mənbələrdən məlumat alırıq. Beləliklə, gün ərzində saysız-hesabsız informasiya ilə qarşılaşırıq. Bəzən bir xəbər düşüncəmizi dəyişir, bir fakt qərarımıza təsir göstərir, bir məlumat isə bütöv cəmiyyətin gündəmini müəyyənləşdirir. Elə buna görə də informasiya yalnız bilik mənbəyi deyil, həm də böyük məsuliyyət tələb edən ictimai dəyərdir.

İnformasiya yalnız mətn və sözlərdən ibarət deyil. O, bütün təcrübəmizi, əlaqələrimizi, elm və texnologiya sahələrini formalaşdıran bir resursdur. 21-ci əsr informasiyanın gücünü daha aydın şəkildə göstərir. Sivilizasiyanın inkişafında da informasiyanın rolu əvəzedilməzdir. İnformasiya cəmiyyəti müasirliyə aparan yoldur. Bu baxımdan, bəşər tarixində informasiya həmişə mühüm əhəmiyyət kəsb edib.

32 il öncə...

Yeri gəlmişkən, 1994-cü ildən 26 noyabr - Dünya İnformasiya Günü kimi qeyd olunur. 1992-ci il noyabrın 26-da Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə I Beynəlxalq İnformasiyalaşdırma Forumu keçirilib. Forumun işində dünyanın 29 ölkəsindən 10 mindən artıq alim və mütəxəssis iştirak edib. Tədbirdə ənənəvi olaraq hər il noyabrın 26-da Dünya İnformasiya Gününün qeyd olunmasına dair qərar qəbul olunub. Beləliklə, bu əlamətdar gün rəsmi olaraq 1994-cü ildə UNESCO tərəfindən qeydiyyata alınıb. Bu gün İKT sahəsində çalışanların peşə bayramıdır.

İnformasiya azadlığı demokratiyanın göstəricisidir

Dünya İnformasiya Günündə ən çox diqqətdə olan məsələlərdən biri fikir və söz azadlığıdır. Təsadüfi deyil ki, söz və informasiya azadlığı hər bir ölkənin inkişafı üçün vacib olan məsələlərdən biridir. Belə ki, söz və informasiya azadlığı ümumilikdə demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması üçün əsas zəminlərdən sayılır.

İnformasiya azadlığı, jurnalistlərə ifadə azadlığının verilməsi demokratik cəmiyyətlərin əsas göstəricilərindən və beynəlxalq hüququn daim izlədiyi məsələlərdən biridir. Lakin dünya mürəkkəbləşdikcə, beynəlxalq müstəvidə siyasi və iqtisadi maraqların toqquşması artdıqca medianın müstəqilliyi bəzən arxa plana keçir.

İnformasiya təhlükəsizliyi etikası

Dünya İnformasiya Gününün qeyd olunmasının digər bir məqsədi informasiya mübadiləsinin təhlükəsizliyini və etik standartlarını vurğulamaqdır. Bu günün tələbləri yalnız məlumatın sürətli ötürülməsi ilə məhdudlaşmır, həm də bu məlumatların düzgünlüyü, etibarlılığı və mənbələrin gizliliyi məsələləri ilə əlaqədardır. İnternetin inkişafı ilə yanaşı, məlumatların oğurlanması, saxta xəbərlər, şəbəkə hücumları və fərdi məlumatların sızması kimi problemlər də meydana çıxıb. Buna görə də, informasiya təhlükəsizliyi və etikasına diqqət yetirmək, xüsusilə, rəqəmsal dünyada yaşayan insanlar üçün əsas məsələdir.

Süni intellekt və informasiya dünyasının yeni mənzərəsi

Son illər süni intellekt texnologiyalarının inkişafı informasiya məkanında yeni imkanlar yaradıb. Artıq mətnlər hazırlamaq, şəkillər yaratmaq, videoları redaktə etmək, böyük həcmdə məlumatları təhlil etmək əvvəlkindən daha asandır.

Lakin texnologiyanın bu sürətli inkişafı yeni suallar da meydana çıxarır. Süni intellekt vasitəsilə yaradılan saxta görüntülər, real hadisə təsiri bağışlayan montajlar və yanlış məlumatlar insanları çaşdıra bilər. Bu səbəbdən gələcəyin informasiya cəmiyyətində texnoloji savadlılıqla yanaşı, tənqidi düşüncə və rəqəmsal məsuliyyət də mühüm əhəmiyyət daşıyacaq. Texnologiya informasiyanın istehsalını asanlaşdıra bilər, amma onun həqiqiliyinə və ictimai təsirinə görə məsuliyyəti tamamilə aradan qaldırmır.

Azərbaycanda bu məqamlara diqqət olunur...

Sevindirici haldır ki, ölkəmizdə informasiya azadlığına xüsusi diqqət olunur. Belə ki, söz və media azadlığı Azərbaycanda da demokratik cəmiyyətin prioritet dəyərlərindən biri olaraq qəbul edilir. İnformasiya və söz azadlığı fərdin öz əqidə və mülahizələrini sərbəst formalaşdırmaq, onlara riayət etmək, onlardan sərbəst imtina etmək hüququnu, öz fikir və əqidəsini sərbəst ifadə etmək, şifahi ünsiyyət hüququnu nəzərdə tutur. Söz azadlığı KİV-in fəaliyyəti ilə sıx bağlıdır. Eyni zamanda, istənilən qanuni yolla informasiyanı sərbəst axtarmaq, almaq, ötürmək, istehsal etmək və yaymaq hüququnun həyata keçirilməsi üçün zəruri zəmin yaradır. Azərbaycanda da məhz bu fundamental məqamlara xüsusi diqqət olunur.

Bu gün hər kəs informasiya istehlakçısı olmaqla yanaşı, müəyyən mənada onun yayılmasının da iştirakçısına çevrilib. Deməli, məsuliyyət də hər birimizin üzərinə düşür. Çünki yanlış bir məlumatın yayılması bəzən böyük fəsadlara yol açа bildiyi kimi, vaxtında çatdırılan doğru informasiya da mühüm dəyişikliklərə səbəb ola bilər.

Yeganə BAYRAMOVA

Dayanıqlı nəqliyyatın yeni üfüqləri...

Nəqliyyatın gələcəyində ekologiya, texnologiya və insan amili

Səhər saatlarında tıxacda qalan avtomobillər, dayanacaqlarda avtobus gözləyən insanlar, velosipedlə işə tələsən gənclər, piyada keçidindən istifadə edən sakinlər... Bu mənzərə əslində bir sualı gündəmə gətirir: Biz necə bir şəhərdə yaşamaq istəyirik? Avtomobillərin insanlara hökm etdiyi, yoxsa insanların rahat və təhlükəsiz hərəkət etdiyi şəhərdə?

Məhz bu sual Ümumdünya Dayanıqlı Nəqliyyat Gününün mahiyyətini daha dərindən anlamağa kömək edir. Noyabrın 26-da dünya ictimaiyyəti BMT Baş Assambleyasının təsis etdiyi Ümumdünya Dayanıqlı Nəqliyyat Gününü qeyd edir. Bu gün nəqliyyata yalnız bir məntəqədən digərinə çatmaq vasitəsi kimi deyil, ətraf mühitə, iqtisadiyyata, insan sağlamlığına və həyat keyfiyyətinə birbaşa təsir göstərən mühüm inkişaf amili kimi yanaşmağın vacibliyini xatırladır.

Dayanıqlı nəqliyyat anlayışı sadəcə ekoloji cəhətdən təmiz avtomobillərdən istifadə etmək demək deyil. Bu, insanların təhlükəsiz, əlçatan, rahat və münasib qiymətə hərəkət edə bildiyi, eyni zamanda təbii ehtiyatları qoruyan nəqliyyat sisteminin qurulmasıdır. Başqa sözlə, məqsəd yalnız daha sürətli hərəkət etmək deyil, bunu təbiətə və gələcək nəsillərin imkanlarına zərər vurmadan bacarmaqdır.

Nəqliyyatın görünməyən yükü...

Müasir şəhərlərin ən böyük problemlərindən biri nəqliyyatın ətraf mühitə təsiridir. Avtomobillərin sayının artması yanacaq sərfiyyatını, atmosferə atılan zərərli qazların həcmini və səs-küy səviyyəsini yüksəldir. Xüsusilə, sıx hərəkət olan ərazilərdə hava çirklənməsi insanların gündəlik həyatına, o cümlədən tənəffüs və ürək-damar sağlamlığına mənfi təsir göstərə bilir.

Məsələnin maraqlı tərəfi ondadır ki, nəqliyyatın ekoloji nəticələri yalnız yolda hərəkət edən avtomobillərlə məhdudlaşmır. Avtomobil yollarının genişləndirilməsi, dayanacaqların salınması və nəqliyyat infrastrukturunun qurulması da torpaqdan istifadəyə, yaşıllıq sahələrinə və şəhər landşaftına təsir edir.

Deməli, dayanıqlı nəqliyyat həm də şəhərin nəfəs alması deməkdir. Daha az emissiya, daha çox yaşıllıq, təhlükəsiz piyada zonaları və səs-küyün azaldılması sağlam şəhər mühitinin əsas şərtlərindəndir.

Avtomobildən başqa seçimlər

Dayanıqlı nəqliyyatın əsas istiqamətlərindən biri insanların şəxsi avtomobildən asılılığını azaltmaqdır. Bunun üçün ictimai nəqliyyatın keyfiyyətinin yüksəldilməsi, velosiped infrastrukturunun inkişafı və piyada hərəkətinin təşviqi xüsusi əhəmiyyət daşıyır. Təsəvvür edək ki, insan evindən çıxır, rahat səki ilə metro stansiyasına çatır, vaxtında gələn qatarla iş yerinə yaxın əraziyə gedir və yolun qalan hissəsini piyada qət edir. Bu ssenari nəinki yol hərəkətində avtomobillərin sayını azaldır, həm də şəhər sakinlərinə vaxt, vəsait və sağlamlıq baxımından üstünlüklər qazandırır.

Velosiped də bu mənzərənin mühüm iştirakçısıdır. Xüsusilə, qısa məsafələrdə velosiped həm əlverişli, həm də ekoloji cəhətdən sərfəli nəqliyyat vasitəsidir. Bunun üçün isə təhlükəsiz velosiped zolaqları, parklanma məntəqələri və digər nəqliyyat növləri ilə əlaqələndirilmiş marşrutlar yaradılmalıdır. Əslində, müasir şəhərin uğuru hər kəsin avtomobil sahibi olmasında deyil, avtomobili olmayan insanın da istədiyi yerə rahat çata bilməsindədir.

Ağıllı şəhərlər, ağıllı yollar

Dayanıqlı nəqliyyatın gələcəyini müəyyənləşdirən amillərdən biri də rəqəmsallaşmadır. Ağıllı işıqforlar, real vaxt rejimində hərəkət məlumatları, elektron ödəniş sistemləri və marşrutların optimallaşdırılması nəqliyyatın daha səmərəli idarə olunmasına kömək edir. Məsələn, hərəkət intensivliyinə uyğun tənzimlənən işıqforlar bəzi yol qovşaqlarında gözləmə müddətini azalda bilər. Mobil tətbiqlər sərnişinlərə avtobusun nə vaxt gələcəyini göstərir, elektron bilet sistemləri isə ödəniş prosesini sadələşdirir.

Texnologiyanın yaşıl istiqaməti

Son illərdə elektrik mühərrikli avtomobillərə marağın artması nəqliyyat sektorunda mühüm dəyişikliklərin başlandığını göstərir. Ənənəvi daxiliyanma mühərriklərindən fərqli olaraq, elektrik avtomobilləri hərəkət zamanı egzoz qazları buraxmır. Bu xüsusiyyət xüsusilə şəhər mərkəzlərində yerli hava keyfiyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir.

Lakin elektrikli nəqliyyatın inkişafına yalnız avtomobilin dəyişdirilməsi kimi baxmaq düzgün olmazdı. Doldurma məntəqələrinin genişləndirilməsi, elektrik enerjisinin daha təmiz mənbələrdən əldə edilməsi, batareyaların istehsalı və təkrar emalı da bu prosesin vacib hissələridir.

Bundan başqa, elektriklə işləyən avtobuslar ictimai nəqliyyatda ekoloji dönüşüm üçün böyük imkanlar yaradır. Çünki bir avtobusun gündəlik xidmət etdiyi sərnişin sayı nəzərə alındıqda, bu nəqliyyat vasitələrinin təmiz texnologiyalara keçidi şəhər miqyasında əhəmiyyətli nəticələr verə bilər.



Dayanıqlı nəqliyyat həm də sosial ədalət məsələsidir

Nəqliyyat sisteminin keyfiyyəti insanların təhsil, səhiyyə, iş və digər sosial imkanlara çıxışına birbaşa təsir edir. Əgər ucqar yaşayış məntəqəsindən şəhər mərkəzinə gəlmək uzun vaxt və böyük xərc tələb edirsə, bu, həmin ərazidə yaşayan insanların imkanlarını məhdudlaşdıra bilər.

Ona görə də dayanıqlı nəqliyyat yalnız ekoloji məsələ deyil, həm də sosial bərabərlik məsələsidir. Münasib qiymətli ictimai nəqliyyat, əlçatan dayanacaqlar, panduslar, liftlər, görmə məhdudiyyətli insanlar üçün uyğunlaşdırılmış keçidlər və təhlükəsiz piyada infrastrukturu hər kəsin şəhər həyatında bərabər iştirakına şərait yaradır. Bu baxımdan, uğurlu nəqliyyat sistemi ən sürətli avtomobilin deyil, ən çox insanın ehtiyaclarını nəzərə alan sistemin qurulması ilə ölçülməlidir.

Azərbaycan üçün yeni imkanlar və perspektivlər

Azərbaycanda da dayanıqlı nəqliyyatın inkişafı şəhərsalma və ekoloji siyasətin mühüm istiqamətlərindən biridir. Xüsusilə, Bakı kimi əhalinin və nəqliyyat vasitələrinin sıx cəmləşdiyi şəhərlərdə ictimai nəqliyyatın inkişafı, metro və avtobus xidmətlərinin təkmilləşdirilməsi, velosiped infrastrukturunun genişləndirilməsi, elektrik nəqliyyatına keçid mühüm əhəmiyyət daşıyır.

Ölkəmizdə son illərdə elektrik avtobuslarının istifadəyə verilməsi və elektrik avtomobilləri üçün enerji doldurma infrastrukturunun genişləndirilməsi istiqamətində atılan addımlar bu sahədə yeni imkanlar yaradır. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə müasir şəhərsalma prinsipləri əsasında qurulan yaşayış məntəqələri dayanıqlı və ağıllı nəqliyyat həllərinin tətbiqi üçün əlavə perspektivlər açır.

Bakı şəhərinin nəqliyyat gələcəyi baxımından əsas hədəflərdən biri də müxtəlif nəqliyyat vasitələrinin vahid və əlaqələndirilmiş sistemdə fəaliyyət göstərməsidir. Metro, avtobus, dəmir yolu, velosiped və piyada infrastrukturu bir-birini tamamladıqda şəhər daxilində hərəkət daha səmərəli olur.

Gələcəyin yolları bu gün çəkilir

Ümumdünya Dayanıqlı Nəqliyyat Günü bizə bir daha xatırladır ki, yollar yalnız avtomobillərin hərəkəti üçün nəzərdə tutulmuş asfalt zolaqları deyil. Onlar şəhərləri birləşdirən, insanlara imkanlar yaradan, iqtisadi inkişafı dəstəkləyən və həyat keyfiyyətini formalaşdıran mühüm ictimai məkanlardır.

Gələcəyin şəhərləri daha çox avtomobilin deyil, daha rahat hərəkətin, daha təmiz havanın və daha təhlükəsiz küçələrin olduğu şəhərlər olmalıdır. Bunun üçün texnologiya, düzgün planlaşdırma, ekoloji məsuliyyət və ictimai iştirak bir araya gəlməlidir.

Unutmayaq ki, dayanıqlı nəqliyyat sadəcə gələcək üçün hazırlanmış bir layihə deyil. O, bu gün verdiyimiz qərarların, seçdiyimiz marşrutların və formalaşdırdığımız şəhər mədəniyyətinin nəticəsidir. Çünki gələcəyin yolunu salmaq üçün ilk addımı elə bu gün atmaq lazımdır...

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4336
Sifariş: 1553
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova